QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 199 (5430) 1 **noyabr** 2017-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# “Türkiyə-Azərbaycan qardaşlığı, birliyi bu gün ən yüksək zirvədədir”

*<u>İlham Əliyev:</u> “Dünyada bir-birinə yaxın olan, bir-birinə bu qədər dəstək verən ikinci ölkələr yoxdur”*



Səh 2




Azərbaycan və “Şərq tərəfdaşlığı”: əməkdaşlığın əsas şərtləri — 8



Siyavuş Novruzov: “Bakı-Tbilisi-Qars dəmir yolu xətti turizmin inkişafına təkan verəcək” — 6



Milli Məclisin növbəti plenar iclası keçirilib — 7



Türkiyə KİV-ləri: Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı tarixi hadisədir — 6



Sinxua: Bakı-Tbilisi-Qars Asiya və Avropanı Qafqaz regionu vasitəsilə əlaqələndirir — 6



Vüqar Rəhimzadə: “Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı çox böyük tarixi hadisədir” — 10

10 — Bakı-Tbilisi-Qars dəmir yolu xətti region dövlətləri üçün yeni imkanlar açacaq



13 — “Ermənistan böyük yolların kəsişməsindəki hündür daşın üzərində oturan min yaşlı kor bayquşa çevrilir”



16 — Güləşçilərimiz Dağıstanda iki qızıl medal qazanıblar



# “Türkiyə-Azərbaycan qardaşlığı, birliyi bu gün ən yüksək zirvədədir”

## *İlham Əliyev: “Dünyada bir-birinə yaxın olan, bir-birinə bu qədər dəstək verən ikinci ölkələr yoxdur”*



**“Türkiyə bu gün dünya miqyasında böyük gücə çevrilibdir. Dostlar sevinir, düşmənlər isə məyus olur. Qoy həmişə dostlarımız sevinsin.”**

***Oktyabrın 31-də Bakıda Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının altıncı iclası keçirilib. Bununla əlaqədar Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəsmi qarşılanma mərasimi olub. AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.***

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı qarşıladı. Fəxri qarovul dəstəsinin rəisi Türkiyə Prezidentinə raport verdi. Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub. Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi. Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının altıncı iclasının əlaqələrimizin perspektivlərinin müəyyənləşdirilməsi və ikitərəfli münasibətlərimizin daha da dərinləşdirilməsi baxımından önəmi vurğulandı. Qlobal layihə olan Bakı-Tbilisi-Qars dəmir yolunun açılışının əhəmiyyəti qeyd edildi. Söhbət zamanı ölkələrimiz arasında qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.



Oktyabrın 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının altıncı iclası keçirilib. **Azərbaycan Prezidenti İlham Əliyev iclasda çıxış edib:**

-Hörmətli cənab Prezident, əziz qardaşım. Hörmətli qonaqlar.

Mən sizin hamınızı ürəkdən salamlayıram. Azərbaycana xoş gəlmisiniz.

Cənab Prezident, biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk. Bu gün biz təkbətək görüşdə bir çox məsələləri müzakirə etdik. Bir daha görürük ki, Türkiyə-Azərbaycan əlaqələri ən yüksək səviyyədədir, ən yüksək zirvədədir. Əlaqələrimizin inkişafı ilə bağlı bizim fikirlərimiz üst-üstə düşür.

Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının bugünkü toplantısı da əminəm ki, çox uğurlu nəticə verəcək. Gündəlikdə bir çox məsələlər var - siyasi əlaqələr, beynəlxalq təşkilatlardakı birgə fəaliyyətimiz, iqtisadi sahədə əməkdaşlıq, hərbi, hərbi-texniki əməkdaşlıq, təbii ki, enerji, nəqliyyat məsələləri. Yəni, gündəlik kifayət qədər genişdir və bütün istiqamətlər üzrə çox yaxşı nəticələr var.

*Ardı Səh. 3*

# "Türkiyə-Azərbaycan qardaşlığı, birliyi bu gün ən yüksək zirvədədir"

## *İlham Əliyev: "Dünyada bir-birinə yaxın olan, bir-birinə bu qədər dəstək verən ikinci ölkələr yoxdur"*

Əvvəli Səh. 2

Bizim qəbul etdiyimiz qərarlar icra edilir və hökumətlərarası birgə komissiya da çox uğurla fəaliyyət göstərir.

Əminəm ki, bu gün geniş tərkibdə müzakirə ediləcək məsələlər də yaxşı nəticələrə gətirib çıxaracaq. Bir daha xoş gəlmisiniz.

X X X

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan:**

- Hörmətli Prezident, dəyərli heyət üzvləri. Əvvəlcə, gəldiyimiz andan bəri göstərdiyiniz qonaqpərvərliyə görə həm adımdan, həm də nümayəndə heyətim adından çox təşəkkür edirəm.

Dünən və bu gün keçirdiyimiz görüşlərlə birlikdə Türkiyə ilə Azərbaycan arasındakı qardaşlığın, dostluğun necə yüksək səviyyəyə çatdırıldığını xüsusilə sevinc içərisində müşahidə edirik.

Xüsusilə indi Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsini, atdığımız addımın nəticəsini görmək bizi çox qürurlandırır. Dünən 15 dəqiqəlik dəmir yolu səyahətimizi vətəndaşlarımız, xalqlarımız gördülər. İnşallah, onların tezliklə təkcə Qarsdan Bakıya deyil, Pekinə, Londona getdikləri günləri də hamımız birlikdə görəcəyik və dualarını eşidəcəyik. Bu münasibətlə dəyərli qardaşım Sizə, həmçinin memarından mühəndisinə, podratçısına qədər bütün firmalara, əməyi olan bütün nazir yoldaşlarımıza çox təşəkkür edirəm. Bu münasibətlə bu gün keçirdiyimiz Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasının da xeyirli olmasını diləyirəm. Sağ olun.



**"Bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün ərzində icra edilir. Bizə gəldikdə isə iyirmi ildən çoxdur ki, bu qətnamələr, qərarlar icra olunmamış qalır."**



Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının altıncı iclası başa çatdıqdan sonra Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan-Türkiyə sənədlərinin imzalanması mərasimi olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının altıncı iclasının Protokolu"nu imzaladılar.

"Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Türkiyə Respublikasının Ali Təhsil Şurası arasında ali təhsil sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının təhsil naziri Mikayıl Cabbarov və Türkiyə Respublikasının Ali Təhsil Şurasının rəhbəri Yekta Saraç imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikasının təhsil naziri Mikayıl Cabbarov və Türkiyə Respublikasının təhsil naziri İsmet Yılmaz imzaladılar.

Ardı Səh. 4

# "Türkiyə-Azərbaycan qardaşlığı, birliyi bu gün ən yüksək zirvədədir"

## *İlham Əliyev: "Dünyada bir-birinə yaxın olan, bir-birinə bu qədər dəstək verən ikinci ölkələr yoxdur"*



Əvvəli Səh. 3

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında preferensial ticarət sazişinin imzalanmasına dair Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının iqtisadiyyat naziri Şahin Mustafayev və Türkiyə Respublikasının iqtisadiyyat naziri Nihat Zeybekci imzaladılar. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında müdafiə sənayesi sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikasının müdafiə naziri Zakir Həsənov və Türkiyə Respublikasının milli müdafiə naziri Nurettin Canikli imzaladılar. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında yem bitkiləri toxumu istehsalı və sertifikatlaşdırılması sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov və Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu imzaladılar.

Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış ediblər.

**Prezident İlham Əliyevin bəyanatı:**

-Hörmətli cənab Prezident, əziz qardaşım.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Əziz qardaşım, Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz. Sizin səfəriniz çox böyük əhəmiyyət daşıyır. Biz dünən tarixi Bakı-Tbilisi-Qars dəmir yolunun açılışında birlikdə iştirak etmişik və bu gün Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Əməkdaşlıq Şurasının növbəti toplantısını keçirmişik. Toplantıda müzakirə olunan məsələlər demək olar ki, həyatımızın əsas sahələrini əhatə edir. Həm təkbətək görüşdə, həm nümayəndə heyətlərinin iştirakı ilə keçirilmiş görüşdə bir daha biz gördük ki, Türkiyə-Azərbaycan əlaqələri ən yüksək səviyyədədir. Dünyada bir-birinə yaxın olan, bir-birinə bu qədər dəstək verən ikinci ölkələr yoxdur. Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı, birliyi bu gün ən yüksək zirvədədir. Təbii ki, müzakirə olunan məsələlərlə bağlı bizim aramızda fikir birliyi var. Bütün məsələlər öz həllini tapır. Müzakirə olunan məsələlər həyatda öz əksini tapır.

Təbii ki, bu gün biz siyasi əlaqələrimizin gələcək inkişafını müzakirə etdik. Siyasi əlaqələr çox uğurla inkişaf edir. Yüksək səviyyəli qarşılıqlı səfərlər həyata keçirilir. Mən bu il iki dəfə Türkiyədə olmuşam. Bu gün Türkiyə Prezidenti Azərbaycanda səfərdədir. Nazirlər, digər vəzifəli şəxslər tez-tez görüşürlər. Eyni zamanda, beynəlxalq təşkilatlar çərçivəsində də biz hər zaman olduğu kimi, bir-birimizi dəstəkləyirik. Bütün beynəlxalq təşkilatlarda Türkiyə-Azərbaycan həmişə bir-birinin yanındadır.

Bu gün region üçün ən ağrılı problemlərdən biri olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi də müzakirə edildi. Mən Prezident Ərdoğana danışıqlarla bağlı son vəziyyət haqqında məlumat verdim. Əfsuslar olsun ki, bu münaqişə hələ də öz həllini tapmayıb. Azərbaycanın tarixi əzəli torpağı olan Dağlıq Qarabağ və digər 7 rayon işğal altındadır. İşğal nəticəsində bir milyondan çox azərbaycanlı öz doğma torpağında köçkün vəziyyətinə düşmüşdür. Beynəlxalq təşkilatlar, xüsusilə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası münaqişə ilə bağlı dörd qətnamə qəbul etmişdir. O qətnamələrdə göstərilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Əfsuslar olsun ki, bu qətnamələr kağızda qalır, Ermənistan buna məhəl qoymur və münaqişə öz həllini tapmır. Bu, bizə qarşı göstərilən ikili standartlar siyasətidir. Bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün ərzində icra edilir. Bizə gəldikdə isə iyirmi ildən çoxdur ki, bu qətnamələr, qərarlar icra olunmamış qalır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn normaları əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. Heç vaxt Azərbaycan xalqı və dövləti imkan verməz ki, bizim tarixi torpağımızda ikinci erməni dövləti yaradılsın. Mən Prezident Ərdoğana Türkiyənin bu məsələ ilə bağlı Azərbaycana verdiyi dəstəyə görə bir daha öz minnətdarlığımı bildirmişəm. Türkiyə bütün zamanlarda, bütün beynəlxalq təşkilatlarda Azərbaycanın haqq işini dost kimi, qardaş kimi dəstəkləyir.

Bu gün biz hərbi sahədə əməkdaşlıq haqqında geniş müzakirə apardıq. Bu məsələ gündəlikdə duran məsələlərdəndir. Bu il Azərbaycanda üç dəfə - iki dəfə Bakıda, bir dəfə Naxçıvanda birgə hərbi təlimlər keçirildi. Bu da hərbi sahədə bizim əməkdaşlığımızı gücləndirən amildir. Eyni zamanda, hərbi texniki sahədə birgə fəaliyyətimiz davam edir. Türkiyənin gündən-günə inkişaf edən hərbi sənaye kompleksi bizim üçün böyük maraq kəsb edir. Biz Türkiyədən hərbi təyinatlı məhsulları alırıq və bundan sonra da alacağıq.

Bu gün iqtisadi sahədə imzalanmış sənəd böyük əhəmiyyət kəsb edir. Preferensial, yəni, imtiyazlı ticarət sazişi böyük məna daşıyır. Əminəm ki, bu sazişin qüvvəyə minməsi nəticəsində aramızda olan ticarət dövriyyəsi də böyük dərəcədə artacaq. Bu gün, eyni zamanda, qarşılıqlı sərmayə qoyuluşu - investisiyalar haqqında aidiyyəti qurumların rəhbərləri məruzələr etdilər. Bu günə qədər Azərbaycandan Türkiyəyə 10 milyard, Türkiyədən Azərbaycana isə 11 milyard dollar sərmayə qoyulubdur. Bu sərmayələrin həcmi artacaq və Azərbaycandan Türkiyəyə yatırılacaq sərmayə 20 milyard dollara çatmalıdır.

Türk şirkətləri Azərbaycanda uzun müddətdir ki, uğurla fəaliyyət göstərirlər. Türk firmaları bu günə qədər dövlət xətti ilə, Azərbaycanın dövlət büdcəsi hesabına 11 milyard dollar dəyərində müxtəlif işlər görmüşlər. Biz çox şadıq. Onların gördükləri işlər çox keyfiyyətlidir. Bu da iş adamları arasındakı dostluğu, əməkdaşlığı gücləndirir.

Təbii ki, bugünkü toplantıda enerji, nəqliyyat məsələləri ənənəvi olaraq müzakirə edildi. Burada da qarşımıza qoyduğumuz bütün məsələlər öz həllini tapdı. Biz qarşıya qoyduğumuz hədəflərə doğru inamla irəliləyirik. Əminəm ki, TANAP layihəsi yaxın zamanlarda başa çatacaq. Bu layihənin icrası ilə bağlı heç bir problem yoxdur. Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi isə dünən artıq istismara verildi. Bu tarixi günü biz qardaşımla birlikdə, bizim Türkiyədən gəlmiş qardaş-bacılarımızla birlikdə qeyd etdik. Bu, bizim böyük uğurumuzdur, böyük qələbəmizdir. Bu, bir daha göstərir ki, Türkiyə və Azərbaycanın iştirak etdikləri və təşəbbüskarları olduqları bütün layihələr icra edilir. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP və Bakı-Tbilisi-Qars layihələri bu sıradan olan qitə miqyaslı böyük transmilli layihələrdir. Bizim birliyimiz, bizim dostluğumuz bütün bunları mümkün edib.

Ardı Səh. 5

### *Rəsmi xronika*

Prezident İlham Əliyev Naxçıvan Dövlət Universitetinin əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Azərbaycan Prezidenti İlham Əliyev Əlcəzair Prezidenti Əbdüləziz Buteflikaya təbrik məktubu göndərib. Təbrikdə deyilir: "Hörmətli cənab Prezident, Əlcəzair Xalq Demokratik Respublikasının milli bayramı - İnqilab Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Əlcəzair arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir. Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Əlcəzair xalqına sülh və rifah arzulayıram".

## Azərbaycanın və Türkiyənin birinci xanımlarının görüşü olub

Oktyabrın 31-də Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğan ilə görüşü olub.



# “Türkiyə-Azərbaycan qardaşlığı, birliyi bu gün ən yüksək zirvədədir”

## *İlham Əliyev: “Dünyada bir-birinə yaxın olan, bir-birinə bu qədər dəstək verən ikinci ölkələr yoxdur”*



Əvvəli Səh. 4

Bu gün Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı, birliyi bölgə üçün önəmli amildir, bölgədə sabitləşdirici rol oynayır. Güclənən Türkiyə bizim gücümüzü artırır və biz də sizin uğurlarınıza ürəkdən sevinirik. Əziz qardaşımın liderliyi sayəsində Türkiyə bu gün dünya miqyasında böyük gücə çevrilibdir. Dostlar sevinir, düşmənlər isə məyus olur. Qoy həmişə dostlarımız sevinsin. Əminəm ki, biz bundan sonra da ancaq inkişaf, tərəqqi və qələbə yolu ilə gedəcəyik. Türkiyə-Azərbaycan birliyi, qardaşlığı əbədi olacaqdır. Sağ olun.

**Prezident Rəcəb Tayyib Ərdoğanın bəyanatı:**

- Çox hörmətli qardaşım Prezident İlham Əliyev.

Hörmətli nazirlər, mətbuat nümayəndələri.

Əvvəlcə, gəldiyimiz andan etibarən heyətimizə göstərilən qonaqpərvərliyə görə dəyərli qardaşıma şəxsən öz adımdan və heyətim adımdan çox təşəkkür edirəm.

Hazırda biz təbii ki, xarici ölkədə deyilik, evimizdəyik. Ona görə bu səfərimizin özünəməxsus tərəfi Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının toplantısını keçirməyimiz, digər tərəfdən, bildiyiniz kimi, dünən Bakı-Tbilisi-Qars dəmir yolunun açılışını etməyimizin bizi Asiya-Avropa xəttinin, qitələrin birləşməsi nöqtəsində daha güclü bir səviyyəyə çatdırıb.

Göründüyü kimi, artıq yalnız müəyyən sahələr üzrə qitələri bir-birinə bağlamırıq. Eyni zamanda, enerji xətləri məsələsində də davamlı olaraq belə bağlantıların qurulması Türkiyə ilə Azərbaycan arasındakı bu əlaqələrin, bu həmrəyliyin nə qədər güclü olduğunu göstərir. TANAP bunun ən gözəl nümunəsidir. Hazırda TANAP ilə bağlı işlər intensiv şəkildə davam edir. İnşallah, çox davam etməyəcək, qısa müddətdən sonra Azərbaycan qazı buradan Avropaya nəql olunacaq.



Təbii ki, bu, bəzi qüvvələri narahat edir. Eyni qaydada, bildiyiniz kimi, Bakı-Tbilisi-Qars dəmir yolu inşa ediləndə “Bunu necə inşa edəcəksiniz? Bunun həyata keçmə ehtimalı yoxdur” deyənlər var idi. Ancaq dünən açılışını etdik, qatarımızı səfərə yola saldıq və biz də 15 dəqiqə səfərdə olduq. İnşallah, bundan sonra oradan da on minlərlə, yüz minlərlə sərnişinə təkcə Bakı-Tbilisi-Qars deyil, elə bir gün gələcək ki, Pekindən Londona qədər bu xətdən istifadə etmək qismət olacaq. Bunları, inşallah, görəcəyik. Allah bizə o günləri də göstərəcək. Mən buna da inanıram.

Bu yolla təkcə insanlar səfər etməyəcəklər. Eyni zamanda, buradan çox ciddi yük daşınması da olacaq ki, bu da xüsusilə iqtisadiyyatın faydası baxımından, bu yüklər ucuz qiymətlə necə daşına bilər, bunu göstərməsi baxımından çox böyük önəmə malikdir. Digər mühüm məsələ artıq Türkiyə və Azərbaycan arasında 1,6 milyard dollarlıq ticarət dövriyyəsinin həcmidir ki, - neftin qiymətlərinin aşağı düşməsi ilə əlaqədar bir qədər çətinlik oldu, ancaq indi yenidən vəziyyət düzəldi, - əminəm, bunu qısa müddətdə 5 milyard dollara çatdıra bilərik. İnşallah, buna nail olacağıq. Türkiyə və Azərbaycan hər sahədə bu addımları atacaq. Dünən Nazirlər Kabinetimiz bir qərar qəbul etdi. Qarşıya Naxçıvandan Türkiyəyə ildə 120 milyon dollarlıq idxal həcmi hədəfini qoyduq. Beləliklə, Naxçıvanı daha da inkişaf etdirmək, canlandırmaq üçün “Sən yalnız deyilsən, qardaş” deməyin, inşallah, addımını atacağıq.

Təbii ki, bütün bunlarla yanaşı, siyasi, hərbi, iqtisadi, ticari, mədəni sahələrdə Türkiyə-Azərbaycan həmrəyliyi güclənməkdə davam edir. Bir az əvvəl qardaşımın da dediyi kimi, həm bizim qarşılıqlı səfərlərimiz, həm də nazirlərimizin intensiv görüşləri Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrin, həmrəyliyin hansı səviyyədə olduğunu göstərir. Qurumlarımızın gördüyü işlər də eyni qaydada. Xüsusilə son zamanlar müdafiə sənayesi sahəsindəki həmrəyliyimiz təbii ki, böyük əhəmiyyət kəsb edir. Əlbəttə, turizmi inkişaf etdirmək, eyni zamanda, mədəni əlaqələrimizi, həmçinin universitetlər arasındakı əlaqələrimizi genişləndirmək məqsədilə atdığımız və atacağımız addımlar böyük əhəmiyyət daşıyır.

Beləliklə, Türkiyənin və Azərbaycanın bu həmrəyliyi, beynəlxalq təşkilatlarda da göstərilən həmrəylik çox vacibdir. Qarşıda Azərbaycanın EXPO məsələsi var. Türkiyə təbii ki, bu məsələdə də bütün imkanları, bütün gücü ilə Azərbaycanı dəstəkləyəcək. EXPO-nun burada hazırlanmasında və keçirilməsində bütün təcrübəmizi bölüşməyə çalışacağıq.

Gəldiyimiz andan etibarən həm şəxsən mənə, həm də nümayəndə heyətimə göstərilən diqqətə görə bir daha minnətdarlığımı bildirirəm. “Türkiyə-Azərbaycan həmrəyliyi, qardaşlığı yaşasın!” deyirəm.

## Azərbaycan və Türkiyə prezidentləri birgə nahar ediblər



Oktyabrın 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan ilə birgə nahar ediblər.

## Siyavuş Novruzov: "Bakı-Tbilisi-Qars dəmir yolu xətti turizmin inkişafına təkan verəcək"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qlobal layihələrin uğurla həyata keçirilməsi istiqamətində qətiyyətli siyasət yürüdür. Oktyabrın 30-da Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istifadəyə verilməsi bunun daha bir bariz nümunəsidir.

Bu fikri AZƏRTAC-a açıqlamasında Milli Məclisin ictimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov deyib.

Siyavuş Novruzov bildirib ki, bu, çox böyük layihədir, Avropa İttifaqına daxil olan ölkələrin heç birində bu cür layihələr hələ həyata keçirilməyib. Azərbaycanın Avropa İttifaqının üzvü olmamasına baxmayaraq, bu cür qlobal layihələrdə fəal şəkildə iştirak edir və onu reallaşdırır. Bu da Azərbaycanın beynəlxalq miqyasda nüfuzunun artmasına mühüm təsir göstərir. Azərbaycan artıq dünyada öz sözünə əməl edən bir dövlət kimi tanınır.

Milli Məclisin komitə sədri qeyd edib ki, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin reallaşması həm iqtisadi, həm də siyasi cəhətdən çox əhəmiyyətlidir. Siyasi cəhəti iqtisadi cəhətindən daha çoxdur. Bu layihənin reallaşması qədim İpək Yolunun bərpasıdır. Bu, Çindən başlayaraq Avropaya qədər gedən yoldur. Həmçinin Orta Asiya ölkələrinin həmin layihəyə qoşulmasının əhəmiyyətini xüsusi qeyd etmək lazımdır. Digər tərəfdən, bu, həm təhlükəsizlik baxımından, həm də müstəqilliyin qarantı baxımından çox vacib layihələrdən biridir. Ermənistanın bu layihəyə qoşulmaması bir daha onun çökməsinə və yaşadığı iqtisadi böhranın daha da dərinləşməsinə gətirib çıxaracaq. Çünki Ermənistanın ətrafında olan bütün dövlətlər bu layihədə iştirak edir və bundan istifadə edirlər. Burada həm yüklərin, həm də insanların daşınması ölkəmizə kifayət qədər vəsait gətirəcək, o cümlədən turizmin inkişafına da təkan verəcək. Turistlər Azərbaycanın infrastrukturundan istifadə edəcəklər. Bununla da müəyyən vəsait Azərbaycana sərf olunacaq ki, bu da bizim iqtisadiyyatımızın inkişafına öz töhfəsini verəcək.

"Bakı-Tbilisi-Qars dəmir yolu qlobal bir layihədir. Bu, Azərbaycanın daha bir böyük uğurudur. Bu münasibətlə dövlətimizi və xalqımızı təbrik edirəm", - deyə S.Novruzov vurğulayıb.

## AGERPRES agentliyi: Bakı-Tbilisi-Qars dəmir yolu xətti Avrasiyanın nəqliyyat xəritəsinin önəmli hissəsidir

Ruminiyanın AGERPRES milli xəbər agentliyi Bakı-Tbilisi-Qars dəmir yolunun açılış mərasimini geniş işıqlandırıb. AZƏRTAC xəbər verir ki, bununla bağlı dərc olunan məqalədə layihənin tarixi əhəmiyyəti vurğulanır, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tarixi İpək Yolunun bərpası olduğu diqqətə çatdırılır.



NEWSLETTER LOG IN ȘTIRI FOTO VIDEO INTERVIU REPORTAJ MAGYAR ENGLISH AGERPRES 125

AGENȚIA NAȚIONALĂ DE PRESĂ AGERPRES Actualizează lumea.

Politică Economie Justiție Social Sci&Tech Sănătate Externe Cultură Media Sport Lifestyle Documentare

FLUXUL AGERPRES ...venit cu premierul ca sumele pentru tratamentele răniților de la "Colectiv" să fie suportate de la buget și în 2018 * Incendii: UE ... ABONAȚI-VĂ

Lansarea Căii ferate Baku-Tbilisi-Kars

luni, 30 Oct 2017, 15:40 • BUSINESS OTS
182 afișări

La 30 octombrie 2017 a avut loc mult așteptata lansare istorică a căii ferate Baku-Tbilisi-Kars, cea mai importantă componentă a rutei internaționale de transport trans-caspic și a proiectului 'Noul Drum al Mătăsii' la nivel global.

ȘTIRILE MOMENTULUI

Dragnea: Am convenit cu premierul ca sumele pentru tratamentele răniților de la "Colectiv" să fie suportate de la buget și în 2018 — acum 2 ore

Incendii: UE intenționează să regândească protecția civilă în Europa — acum 2 ore

Juanes, Luis Fonsi, J Balvin și Maluma vor susține recitaluri la premiile Grammy Latino — acum 2 ore

Christina Aguilera îi va aduce un omagiu lui Whitney Houston la gala American Music Awards — acum 3 ore

Declarația zilei aparține preotului Constantin Necula — acum 3 ore

ȘtirileTVR

Vreme extremă în țară: În județul Buzău vântul a suflat ca în timpul unui uragan, la Brașov o furtună a urcat fulgii de zăpadă spre cer

Məqalədə dəmir yolunun iqtisadi perspektivinə və gələcəkdə daşınan yüklərin miqdarına nəzər salınıb. Layihənin Avropa üçün mühüm əhəmiyyət kəsb etdiyini bildirən müəllif açılış mərasimində iştirak edən ali qonaqların çıxışlarına istinad edərək Bakı-Tbilisi-Qars dəmir yolunun Avrasiyanın nəqliyyat xəritəsinin önəmli hissəsinə çevrilməsinə diqqət çəkib. Yazıda bildirilir ki, bu nəhəng layihə sabitliyə, təhlükəsizliyə xidmət edəcək, qarşılıqlı sərmayələri artıracaq, turizmi inkişaf etdirəcək.

## Baş katib: "Müsəlman Dünyası Liqası Azərbaycan ilə əməkdaşlığa böyük əhəmiyyət verir"



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Səudiyyə Ərəbistanı Krallığına səfəri çərçivəsində oktyabrın 31-də Müsəlman Dünyası Liqasının Baş katibi Məhəmməd bin Əbdülkərim əl-İsa ilə görüşüb. Komitədən AZƏRTAC-a bildiriblər ki, görüşdə Prezident İlham Əliyev tərəfindən elan edilmiş "İslam Həmrəyliyi İli" çərçivəsində görülən işlər, eləcə də ikitərəfli əməkdaşlıq məsələləri müzakirə edilib. Azərbaycan ilə əməkdaşlığa böyük əhəmiyyət verdiklərini bildirən Müsəlman Dünyası Liqasının Baş katibi ikitərəfli əlaqələrin qarşılıqlı hörmətə və İslam irsinə əsaslandığını bildirib. O, Azərbaycanın müsəlman ölkələri arasında İslam həmrəyliyinin gücləndirilməsi istiqamətində göstərdiyi bütün səylərin yüksək dəyərləndirildiyini diqqətə çatdırıb. Bildirib ki, İslam dünyasına aid problemlərin həllində Azərbaycanın fəal rol oynaması onun bütün müsəlman ölkələri ilə əlaqələrinin daha da möhkəmlənməsinə mühüm töhfə verəcək.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Azərbaycanın müsəlman dövlətləri ilə qarşılıqlı əlaqələrini genişləndirməsinin dövlətimizin xarici siyasət xəttinin prioritet istiqamətlərindən biri olduğunu qeyd edib. Dövlətimizin daim İslam həmrəyliyi və dinlərarası dialoqun tərəfdarı olduğunu vurğulayan Komitə sədri Azərbaycanın IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etməsinin onun müsəlman aləmi ilə münasibətləri genişləndirməyə yönəlik siyasətindən irəli gəldiyini bildirib.

## Sinxua: Bakı-Tbilisi-Qars Asiya və Avropanı Qafqaz regionu vasitəsilə əlaqələndirir



New China | Top News | Latest News | Photos | Video

Latest News U.S. company recalls chocolate products over "life-threatening" risks

Azerbaijan, Turkey, Georgia inaugurate newly built Asia-Europe railway

Source: Xinhua | 2017-10-31 03:15:19 | Editor: huaxia

Turkish President Tayyip Erdogan his Azeri counterpart Ilham Aliyev and Georgian Prime Minister Giorgi Kvirikashvili attend the inauguration ceremony of Baku - Tbilisi - Kars railway in Alyat, Azerbaijan, October 30, 2017. (REUTERS PHOTO)

BAKU, Oct. 30 (Xinhua) -- Top leaders of Azerbaijan, Turkey and Georgia opened on Monday a newly built railway line which connects the three countries in Azerbaijan's capital city of Baku, linking central Asia and Europe through the Caucasus region.

The opening of the 826-km Baku-Tbilisi-Kars railway line marks the conclusion of a 10-year project to open a rail corridor carrying cargo and passengers between the two continents.

Bakı-Tbilisi-Qars (BTQ) layihəsi Azərbaycan, Türkiyə və Gürcüstanın dəmir yolu şəbəkəsini birləşdirməklə, Asiya və Avropanı Qafqaz regionu vasitəsilə əlaqələndirir. AZƏRTAC xəbər verir ki, bu fikirlər Çinin milli xəbər agentliyi Sinxuanın Bakı-Tbilisi-Qars dəmir yolunun açılış mərasimi barədə yaydığı "Azərbaycan, Türkiyə və Gürcüstan yeni inşa edilən Asiya-Avropa dəmir yolunu istifadəyə verir" adlı xəbərdə qeyd olunur. Bildirilir ki, dəmir yolu xətti Asiya ilə Avropa arasında yük və sərnişin daşınmasında dəhliz açır.

Sinxua dövlətimizin başçısı İlham Əliyevin BTQ-nin açılış mərasimində dediyi "Bakı-Tbilisi-Qars dəmir yolu tarixi layihədir, strateji əhəmiyyətli layihədir" fikrini qeyd edərək yazır ki, Azərbaycan Prezidenti bu yolun sabitliyə və təhlükəsizliyə xidmət göstərəcəyini bildirib.

Xəbərdə qeyd olunur ki, bu layihə Çin və Avropa arasında yeni İpək Yolu ticarət və nəqliyyat şəbəkəsinin vacib hissəsi olmaq üçün hazırlanıb. Yazıda Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin Bakıda keçirilmiş açılış mərasimində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın, Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvilinin, Qazaxıstanın Baş naziri Bakıtjan Saqintayevin, Özbəkistanın Baş naziri Abdulla Aripovun iştirak etdikləri bildirilir.

## Türkiyə KİV-ləri: Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı tarixi hadisədir

***Bakı-Tbilisi-Qars dəmir yolunun açılış mərasimi Türkiyə KİV-ləri tərəfindən geniş işıqlandırılır. AZƏRTAC xəbər verir ki, Türkiyənin nüfuzlu TRT HABER kanalı Bakı-Tbilisi-Qars dəmir yolu barədə bir neçə gündür yaydığı reportajları açılış mərasimindən sonra daha da genişləndirib. Ölkə televiziyalarının bir neçəsi açılış mərasimini canlı olaraq tamaşaçılara çatdırıb.***







Anadolu Agentliyi bir gün ərzində mövzu ətrafında ondan çox məlumat yayıb. Ölkənin ən nüfuzlu qəzetlərindən olan "Hürriyyət" bu barədə "Tarixi an", "Aydınlıq" "Strateji Bakı-Tbilisi-Qars dəmir yolu açıldı", "Yeni çağ" "Əsrin layihəsi belə açıldı", "Milliyyət" isə "Tarixi gün! Əsrin layihəsi açıldı" adlı məqalələri manşet məlumatları kimi təqdim ediblər. Gündəlik qəzetlər və xəbər agentliklərinin əksəriyyəti açılış mərasimindən videomateriallar və fotosessiyalar yayıb. Qardaş ölkə KİV-ləri açılış mərasimində iştirak edən nüfuzlu qonaqların çıxışlarından sitatlar gətirərək Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin Avrasiyanın sosial həyatına təsir imkanlarını təhlil edir. Ekspertlər əminliklə bildirirlər ki, sülh və inkişaf layihəsi olan bu dəmir yolu yaxın zamanlarda çoxşaxəli şəkildə onlarla ölkəni özünə cəlb edəcək. Türkiyənin bütün KİV-ləri Bakı-Tbilisi-Qars layihəsinin açılışını tarixi hadisə kimi dəyərləndirirlər. Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi qardaş ölkədə sosial şəbəkələrdə də geniş müzakirə olunur.

# Milli Məclisin növbəti plenar iclası keçirilib

***Oktyabrın 31-də Milli Məclisin növbəti plenar iclası keçirilib. Parlament sədrinin birinci müavini Ziyafət Əsgərovun sədrliyi ilə keçən iclasda əvvəlcə 38 məsələdən ibarət gündəlik təsdiqlənib.***

İclasda Milli Məclis sədrinin müavini, təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov "Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Azərbaycan (ACG) Limited, BP Eksploreyşn (Kaspian Si) Limited, Şevron Xəzər, Ltd., Ekson Azərbaycan Limited, İnpeks Sausvest Kaspian Si, Ltd., İtoçu Oyl Eksploreyşn (Azərbaycan) İnk., ONGC Videş Limited, Statoyl Abşeron AS, Türkiyə Petrolleri A.O. arasında Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə" qanun layihəsini təqdim edib. Bildirib ki, yenilənmiş Saziş bu il sentyabrın 14-də Bakıda imzalanıb. İndiyədək, yəni, 1995-2017-ci illər ərzində "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Sazişin icrası prosesində layihə üzrə ümumi xərclərin həcmi 43,5 milyard dollar təşkil edib. Bunlardan da əsaslı xərclər, yəni, kapital qoyuluşları 35 milyard dollara yaxın olub. Layihənin icra olunduğu müddətdə Azərbaycanın payına düşən gəlirlər 130 milyard dollara yaxın mənfəət nefti şəklində çatıb. Podratçı tərəflər 15 milyard dollara yaxın mənfəət vergisi ödəyib. SOCAR-ın ortaq şirkəti 5,9-6 milyard dollar məbləğində mənfəət nefti qazanıb. Bunlarla yanaşı, müqavilə sahəsi üzrə texnoloji ehtiyaclar üçün işlədilməmiş 42 milyard kubmetrə yaxın həcmdə təbii səmt qazı ödənişsiz çatdırılma məntəqəsində dövlətə təhvil verilib.

Vitse-spiker qeyd edib ki, müqavilə müddətinin uzadılması və Sazişin yenilənməsi uzaqgörənliklə atılmış addımdır. Çünki müqavilənin əvvəlki müddəti 2024-cü ilə qədər nəzərdə tutulduğundan qarşıdakı 7 ildə hasilat aşağı düşəcəkdi. Onu sonradan bərpa etməksə çox çətin olacaqdı. Diqqətinə çatdırılıb ki, Azərbaycan dövləti və SOCAR yenilənmiş müqaviləni daha üstün şərtlərlə imzalayıb.

Plenar iclasda müzakirə zamanı deputatlar Vahid Əhmədov, Əli Məsimli, Aydın Mirzəzadə, Tahir Kərimli, Sahibə Qafarova, Siyavuş Novruzov sənədin Azərbaycan dövlətinin və xalqının maraqlarına cavab verdiyini vurğulayıblar. Qeyd olunub ki, Azərbaycan Prezidentinin siyasi iradəsi sayəsində istifadəyə verilən Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunun açılışı tarixi qələbədir. Hazırda parlamentin müzakirəsinə verilmiş yeni neft-qaz Sazişi də iqtisadi baxımdan ölkəmizin qüdrətini daha da möhkəmləndirəcək.

Milli Məclis Sazişi qəbul və təsdiq edib, həyata keçirilməsinə razılıq verib.



İclasda iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə "Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ilə Birləşmiş Ərəb Əmirliklərinin Standartlaşdırma və Metrologiya üzrə Əmirlik Orqanı arasında uyğunluq sertifikatlarının və uyğunluq nişanlarının qarşılıqlı tanınması haqqında" Anlaşma Memorandumu və "Azərbaycan Respublikası Hökuməti ilə Bermud Adaları Hökuməti arasında uçuşların təhlükəsizliyinə nəzarət üzrə tənzimləyici funksiyaların və vəzifələrin ötürülməsinə dair" Saziş barədə məlumat verib. Deputatlar hər iki sənədin təsdiqini məqsədəuyğun sayıblar.

Azərbaycan Prezidentinin imzası ilə Milli Məclisə bir zərfdə daxil olmuş 19 qanun layihəsi "Elm haqqında" Qanunun tətbiqi ilə əlaqədar Əmək Məcəlləsində, 16 qanunda və 2 Əsasnamədə dəyişiklik edilməsi zərurətini ehtiva edirdi. İclasda həmin qanun layihələri barədə elm və təhsil komitəsinin sədri İsa Həbibbəylinin məlumatı dinlənilib.

Deputatlar məsələyə münasibət bildirdikdən sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyulub. Milli Məclis Əmək Məcəlləsində, diplomatik xidmət, dövlət əmlakının özəlləşdirilməsi, dövlət qulluğu, əmək pensiyaları, geodeziya və kartoqrafiya, heyvanlar aləmi, müdafiə, muzeylər, ölçmələrin vəhdətinin təmin edilməsi, rəsmi statistika, sanitariya-epidemioloji salamatlıq, sərhəd qoşunları, təhsil, xüsusi mühafizə olunan təbiət ərazilələri və obyektləri, yanğın təhlükəsizliyi və yaşayış minimumu haqqında qanunlarda, həmçinin Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli Qanunu ilə təsdiqlənmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"də və Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişikliklər edilməsini məqsədəuyğun sayıb.

Gündəlikdəki növbəti iki qanun layihəsini aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov təqdim edib. Bildirib ki, "Yaşıllıqların mühafizəsi haqqında" Qanunda edilən dəyişikliklər yaşıllıqların mühafizəsi sahəsində qanunvericiliyin dəqiqləşdirilməsi, yaşıllıqların uçotu, kadastrı və monitorinqi sahəsində idarəetmənin təkmilləşdirilməsi, yaşıllıqların salınmasının stimullaşdırılması, həmçinin bərpası üçün əkin materialları və digər vasitələrlə təminatı məsələlərinin həlli məqsədini daşıyır.

Məlumat verilib ki, "Çayçılıq haqqında" Qanunun 10-cu maddəsində aparılan dəyişiklik qanunvericiliyin uyğunlaşdırılması məqsədi daşıyır. Layihəyə əsasən, bu sənəd "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Qanuna və "Toxumçuluq haqqında" Qanunda dəyişiklik edilməsinə dair 2017-ci il 14 aprel tarixli Qanuna uyğunlaşdırılacaq.

Hər iki qanun layihəsi qəbul olunub. Qanunvericiliyin uyğunlaşdırılması baxımından "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" 2016-cı il 14 oktyabr tarixli Qanunun tətbiqi ilə əlaqədar gündəliyə üç məsələ daxil edilmişdi. Ölkəmizdə sərnişindaşıma sahəsində yeni ödəmə alətlərinin tətbiqi ilə əlaqədar Mülki Məcəllənin 842-ci maddəsinə, "Avtomobil nəqliyyatı haqqında" Qanunun bir sıra maddələrinə və "Nəqliyyat haqqında" Qanunun 13-cü maddəsinə təklif olunan dəyişikliklər şərh olunduqdan sonra hər üç qanun layihəsi qəbul edilib.

Deputatlara məlumat verilib ki, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Qanuna təklif olunan dəyişikliklər həmin yoxlamaların dayandırılması müddətinin uzadılmasını nəzərdə tutur. Həmçinin insanların həyat və sağlamlığının qorunması ilə bilavasitə bağlı olan yoxlamaların aparılmasını, yəni, dərman vasitələrinin keyfiyyəti və təhlükəsizliyi qaydalarına riayət edilməsi, qida məhsullarının təhlükəsizliyinə nəzarətin həyata keçirilməsi ilə bağlı yoxlamaları təmin etmək məqsədi daşıyır. Fikir mübadiləsindən sonra layihə səsə qoyulub və qanun qəbul edilib.

"Hesablama Palatası haqqında" Qanunda dəyişiklik edilməsinə dair məsələnin müzakirəsi zamanı bildirilib ki, sənəd "Büdcə sistemi haqqında" Qanunda dəyişiklik edilməsi barədə" 2016-cı il 14 oktyabr tarixli Qanunun icrası məqsədilə hazırlanıb. Qanunun qüvvədə olan mətnindən fərqli olaraq yeni layihə cinayət əlamətləri olan hüquqpozmalarla yanaşı, inzibati xəta əlamətləri olan hüquqpozmalarla bağlı materialların da aidiyyəti üzrə göndərilməsini nəzərdə tutur. Deputatlar rəy və təkliflərini diqqətə çatdırıblar. Parlament sənədə müsbət münasibət bildirib.

Plenar iclasın gündəliyindəki növbəti 9 qanun layihəsini hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseyni şərh edib. O bildirib ki, İnzibati Xətalar Məcəlləsində və "Yol hərəkəti haqqında" Qanunda aparılan dəqiqləşdirmə nəqliyyat vasitəsinin parklanması ilə əlaqədardır. Yəni bir parklanmanın müddəti 24 saat müəyyənləşdirilibsə, bu vaxt tamam olmamış nəqliyyat vasitəsi istifadəçisinin məsuliyyəti yarana bilməz.

Deputatlar bu qanunlara müsbət münasibət bildiriblər.

Sonra parlamentə məlumat verilib ki, "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında" Qanunda dəyişikliklər qanunsuz balıq ovu ilə mübarizəni gücləndirmək məqsədi daşıyır. Sənəd səsə qoyuldu və qəbul edilib.

Bildirilib ki, dövlət başçısının 2017-ci il 30 may tarixli Sərəncamına əsasən, Prezident Administrasiyasının strukturunda aparılmış dəyişikliklərlə əlaqədar olaraq "Dövlət qulluğu haqqında" Qanunda dəyişiklik edilməsi zərurəti meydana çıxıb. Səsvermə zamanı parlament qanunu qəbul edib.

İclasda qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə İnzibati Xətalar Məcəlləsinin 116-cı maddəsində, qanunvericiliyin uyğunlaşdırılması məqsədilə Miqrasiya Məcəlləsinin 9-cu və 17-ci maddələrində edilən dəyişikliklər qəbul olunub.

Plenar iclasa sədrlik edən Ziyafət Əsgərov məlumat verib ki, gündəlikdəki növbəti üç məsələ Azərbaycan Ali Məhkəməsinin qanunvericilik təşəbbüsü qaydasında parlamentə daxil olub.

Mülki Prosessual Məcəlləyə, İnzibati Prosessual Məcəlləyə, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanuna təklif olunan dəyişiklikləri şərh edən komitə sədri Əli Hüseynli bildirib ki, yeni müddəalara əsasən, məhkəmə icraatında nümayəndəlik institutu təkmilləşdiriləcək, icraatda iştirak edən şəxslərin prosessual hüquqlarının həyata keçirilməsi üçün peşəkar hüquqi yardım almaq imkanı təmin ediləcək. Nümayəndəliyi özünə bir növ "peşə" edən qeyri-peşəkar şəxslərin onlara etibar edilmiş səlahiyyətlərdən sui-istifadə etməsinə imkan verməyəcək.

Bundan başqa Mülki Prosessual Məcəlləyə təklif olunan digər dəyişikliklər kassasiya icraatının səmərəliliyini artıracaq. Belə ki, Apellyasiya Məhkəməsinin pul vəsaiti tutulması tələblərinə dair bütün qətnamələrində kassasiya şikayəti verilməsi imkanını aradan qaldırmaq üçün iqtisadi mübahisələr üzrə 10 min manatdan, digər hallarda 2 min manatdan az olan əmlak xarakterli iddialar üzrə qətnamələrdən kassasiya şikayəti verilə bilməyəcək.

"Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanuna aparılan dəyişikliklər də qanunvericiliyin təkmilləşdirilməsi xarakteri daşıyır.

Deputatlar Zahid Oruc, Fazil Mustafa, Elşən Musayev, Siyavuş Novruzov, Musa Quliyev, Çingiz Qənizadə, Qənirə Paşayeva, vitse-spiker Valeh Ələsgərov fikir plüralizmi şəraitində layihələrə münasibət bildiriblər. Ali Məhkəmənin kollegiya sədri Şəlalə Məmmədova deputatların suallarını cavablandırıb. Fikir mübadiləsinin yekununda hər iki məcəlləyə, həmçinin "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanuna təklif olunan dəyişikliklər qəbul olunub. Bununla da Milli Məclisin növbəti plenar iclası başa çatdı.

***Rəfiqə KAMALQIZI***

# Azərbaycan və “Şərq tərəfdaşlığı”: əməkdaşlığın əsas şərtləri

***Dövlət başçısı İlham Əliyev oktyabrın 4-də Avropa İttifaqı Şurasının Siyasi və Təhlükəsizlik Komitəsinin nümayəndə heyətini qəbul edib. Müzakirələr maraqlı keçib. Azərbaycan Prezidenti söylədiyi nitqində Avropa İttifaqı ilə əməkdaşlığın başlıca şərtlərini bir daha nümayəndə heyətinin üzvlərinin diqqətinə çatdırıb. Ölkə rəhbəri həyata keçirdiyi siyasi kursda müstəqillik xəttinin, qətiyyətli mövqenin mərkəzi yer tutduğunu ifadə edib. Rəsmi Bakı atdığı bütün addımlarda həmin prinsipə qətiyyət və dönməzliklə əməl edir. O cümlədən Aİ və onun müxtəlif institutları ilə əlaqələrdə bu, özünü daha qabarıq büruzə verir. İndi hamıya Aİ-nin “Şərq tərəfdaşlığı” proqramı ilə bağlı yaranmış vəziyyət məlumdur. Həmin layihədə nəzərdə tutulmuş ölkələrdən ikisi - Ermənistan və Belarus - Rusiyanın Avrasiya inteqrasiya təşəbbüsünə qoşulublar. Ukrayna, Moldova və Gürcüstan ifrat qərbyönümlü mövqeləri ilə özlərinə bir sıra geosiyasi ziddiyyətlər yaratmaqdadırlar. Onların Aİ-yə assosiativ üzvlüyü reallıqda elə bir rol oynamayıb. Yalnız Azərbaycan obyektiv mövqe tutaraq və ilk olaraq milli maraqları gözləyərək Aİ ilə əməkdaşlıq istiqamətində konkret müstəqil plana malikdir. Bütün bunlar barədə görüşdə danışılıb və dövlət başçısı maraqlı, obyektiv və dərin təhlilləri ilə real proqnozlardan bəhs edib. Azərbaycanın həmin proqram çərçivəsində əməkdaşlığa hazır olduğunu ifadə edən İlham Əliyev irəli sürdüyü təkliflərə uyğun addımlar atacağını bir daha nümayəndə heyətinin nəzərinə çatdırıb.***

## Açıq müzakirə: əlahəzrət faktların işığında

Dünya miqyasında mürəkkəb geosiyasi proseslərin getdiyi bir zamanda Azərbaycan-Avropa münasibətlərinin əhəmiyyəti daha da artır. Rəsmi Bakı üzvü olduğu Avropa Şurası ilə əlaqələrin inkişafına həmişə böyük önəm verib. Hazırda da eyni mövqedə qalır. Ancaq təəssüf ki, oxşar sözləri qarşı tərəf haqqında demək xeyli çətindir. İkili standartlar daim onlara müstəqilliyini əldə etmiş bütün ölkələrlə səmimi əməkdaşlıq etməyə, vahid meyarlardan çıxış etməyə mane olub. Bu baxımdan Avropa İttifaqı Şurasının Siyasi və Təhlükəsizlik Komitəsinin nümayəndə heyətinin Azərbaycana səfəri bir neçə aspektdən əhəmiyyət kəsb edirdi.

Hər şeydən əvvəl, tərəflər qarşılıqlı münasibətlərin gələcəyi ilə bağlı mövqelərini dəqiqləşdirmək imkanı əldə edirdilər. Məlumdur ki, hazırda müxtəlif dairələrdən fərqli təkliflər yağdırılır, gənc müstəqil ölkələri öz maraq dairələrinə cəlb etməyə çalışırlar. Başqa məqam konkret olaraq Aİ-nin Azərbaycanla münasibətlərinin gələcəyini necə görmək istədiyi ilə bağlıdır. Rəsmi Bakı bu aspektdə dəqiq və konkret fikir bildirilməsini gözləyir. Digər aspekt Azərbaycanın “Şərq tərəfdaşlığı” proqramı çərçivəsində etdiyi təkliflərə Brüsselin necə yanaşdığı haqqında daha dolğun təsəvvürlər əldə etməklə əlaqəlidir. Nəhayət, Azərbaycan üçün son dərəcə önəmli olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə Aİ-nin yanaşmasının daha da konkretləşməsi əhəmiyyət daşıyırdı.

Bütün bunlar nümayəndə heyətinin Prezident İlham Əliyevlə görüşü zamanı bu və ya digər dərəcədə müzakirə olunub. Ölkə başçısı Aİ-nin böyük nümayəndə heyətini oktyabrın 4-də qəbul edib. Azərbaycan Prezidenti həmin görüşdə tarixi sayılmalı olan nitq söyləyib. İlham Əliyev tərəflər arasındakı münasibətlərin real mənzərəsini təqdim edib, ortada olan çətinlikləri xüsusi vurğulayıb (bax: Azərbaycan Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının nümayəndə heyətini qəbul edib / AZƏRTAC, 4 oktyabr 2017). Təsadüfi deyil ki, həmin çıxışa KİV və ekspert dairələri böyük maraq göstəriblər.

Əvvəlcə qeyd edək ki, nümayəndə heyətinə Avropa İttifaqının Brüsseldə akkreditə olunmuş səfirləri daxil idi. Görüşdə iştirak edənlərə dövlət rəhbərinin öncə Ermənistanın Azərbaycana təcavüzü haqqında və onun nəticəsində meydana gəlmiş mürəkkəb vəziyyət barədə bir sıra dolğun xatırlatmalar etməsi tamamilə yerində və başadüşüləndir. Çünki hazırda Azərbaycan üçün həmin münaqişənin ədalətli həlli strateji əhəmiyyət kəsb edir.

Digər tərəfdən, dünyanın müxtəlif regionlarında müşahidə edilən bir sıra geosiyasi proseslər beynəlxalq ictimaiyyət üçün Dağlıq Qarabağ məsələsinin nə dərəcədə aktual olduğunu dolayısı ilə təsdiq edir. Beynəlxalq aləm sanki Ermənistanın Azərbaycana təcavüzünə göz yummaq və ikili standartlarla hərəkət etməyin ağrısını çəkir. İndi dünyanın bir çox dövlətində analoji problemlər yaranır və onlara həmin ölkə hakimiyyətinin necə sərt reaksiya verdiyini də dünya gördü.

Prezident İlham Əliyevin bütün bunların fonunda avropalı nümayəndələrə bir daha real vəziyyəti anlatması olduqca vacib məqamdır. Dövlət başçısı həmin kontekstdə anlamlı şəkildə vurğulayıb: “İşğal olunmuş ərazilərdəki vəziyyət beynəlxalq ictimaiyyətə məlumdur. ATƏT işğal olunmuş torpaqlara iki dəfə faktaraşdırıcı və qiymətləndirmə missiyaları göndərib və onların hesabatlarında həmin torpaqlarda vandalizm aktlarının törədildiyi göstərilib. Bütün binalar, məzarlar və qəbiristanlıqlar, məscidlər ermənilər tərəfindən dağıdılıb. Onlar Xocalıda azərbaycanlılara qarşı soyqırımı törədərək 613 günahsız insanı qətlə yetirdilər. Onların 100-dən çoxu qadın, 60-dan çoxu uşaq idi. Onlar bizim tarixi və dini abidələrimizi dağıdaraq mədəni irsimizə qarşı soyqırımı törətdilər. Vəziyyət belədir” (bax: əvvəlki mənbəyə).

Təbii ki, bu barədə Azərbaycan rəsmi şəkildə dəfələrlə dünyaya fikirlərini bildirib. Ancaq məsələ ondan ibarətdir ki, Aİ də daxil olmaqla heç bir beynəlxalq təşkilat reallığı olduğu kimi qəbul edib, təcavüzkara lazımi təzyiqi göstərmir. İndi də ölkə rəhbəri avropalı siyasətçilərə aydın dillə ifadə edir ki, bu günə qədərki laqeyd münasibət nə dərəcədə faciələrin hələ də qalmasına səbəb olub. Və bütün bunlardan yalnız Azərbaycan deyil, bütövlükdə dünya zərər görür. Bizcə, nümayəndə heyəti bunu anlaya bildi.

Məsələn, İlham Əliyev Aİ nümayəndə heyətinə erməni terrorunun qurbanları olan 1 milyondan artıq azərbaycanlıdan bəhs edib. Hazırda İraq və Suriyada baş verən proseslərin fonunda bu informasiyanı avropalı səfirlər canları və qanları ilə duymalıdırlar. Çünki indi onların özlərinin ölkələrinə qaçqın və məcburi köçkünlər axışırlar. Bu məsum insanlara bəzi Avropa dövlətləri çox pis münasibət göstərirlər. Bunun fonunda Azərbaycan yeni müstəqillik əldə etmiş ölkə kimi hansı çətinliklərlə milyondan çox insanı qəbul edib, bunu heç olmasa indi anlasınlar! Onu da deyək ki, həmin dövrdə Azərbaycan əhalisi 8 milyondan bir qədər çox idi. İndi 500 milyonluq Avropa İttifaqı yüz min qaçqını özünə böyük problem bilir. Fərqi yəqin ki, dərk etmək çətin deyil!

## Təcavüzkara göz yumulur: ədalətsizlik nümunəsi

Prezident nitqinə davam edərək Dağlıq Qarabağ münaqişəsinin həlli ilə məşğul olan ATƏT-in Minsk qrupunun yarıtmaz işini konkret faktlarla sübuta yetirib. İlham Əliyev açıq ifadə edib: “Əfsuslar olsun ki, ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar heç bir praktiki nəticə əldə olunmadan uzun illərdir davam edir. Ermənistan status-kvonu dəyişməz olaraq saxlamağa çalışır. Münaqişənin həll olunmamasının əsas səbəbi budur. Bundan əlavə, Ermənistan 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi, erməni qoşunlarının işğal olunmuş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrə əməl etmir. Əfsuslar olsun ki, bu qətnamələr kağız üzərində qalır. Bəzən bir neçə gün ərzində yerinə yetirilən bəzi başqa qətnamələrdən fərqli olaraq, bizə gəlincə, biz onların yerinə yetirilməsini 20 ildən artıqdır, daha dəqiq desək 24 ildir ki, gözləyirik” (bax: əvvəlki mənbəyə).

Bu fikirlərə heç kəs etiraz edə bilməz. Uzun illərdir ki, vasitəçilər müəyyən sözlər deyir, vədlər verirlər, lakin konkret iş görmürlər. Həmsədr dövlətlərin başçıları belə dəfələrlə bəyan ediblər ki, status-kvo saxlanıla bilməz, o, dəyişməlidir. Ancaq rəsmi İrəvan bütün bunları qulaqardına vurur, bəyanat verənlər isə susurlar. Nədir, onlar satellit və qondarma bir ölkədən qorxurlar? Təbii ki, yox. Onlar sadəcə ikili standartlarla hərəkət edir və təcavüzkarı müxtəlif bəhanələrlə dəstəkləyirlər. Məhz bu səbəbdən Prezident İlham Əliyev nümayəndə heyətinə bir daha xatırladıb ki, beynəlxalq təşkilatlar bəzən qəbul etdikləri qərarları dərhal yerinə yetirirlər, Dağlıq Qarabağla bağlı qəbul edilən sənədlər isə 20 ildən çoxdur ki, icrasız qalır. Təbii olaraq Azərbaycan bu vəziyyətlə barışa bilməz.

Dövlət başçısı onu da xatırladıb ki, beynəlxalq aləm tərəfdən təzyiqlər artarkən Ermənistan cəbhə xəttində təxribat törədir, bununla da danışıqları pozur, ən azından bir müddət ləngidir. Görünür, o, bunu havadarlarının gizli göstərişi ilə edir. Çünki təxribatlardan sonra nəinki İrəvanı ittiham etmirlər, hətta onu dolayısı ilə müdafiə edirlər.

İlham Əliyev bir daha vurğulayıb ki, Azərbaycanın mövqeyi aydın və sadədir - ölkənin ərazi bütövlüyü təmin edilməlidir. ATƏT-in Minsk qrupunun həmsədrlərinin isə əsas işi Ermənistana ciddi təzyiqlər göstərməkdən ibarət olmalıdır. Bu bağlılıqda ölkə rəhbəri çox vacib bir məqamı da vurğulayıb: “Əgər Ermənistana qarşı sanksiyalar tətbiq olunsaydı, beynəlxalq hüquq normalarını və humanitar normaları kobud şəkildə pozan ölkəyə qarşı ciddi sanksiyalar tətbiq edilsəydi, bəlkə də münaqişə çoxdan həll edilmiş olardı. Beynəlxalq ictimaiyyətin Ermənistana münasibətdə bu cür mülayim siyasəti onlarda belə təsəvvür yaradır ki, onlar bizim torpaqlarımızda qanunsuz şəkildə qalmağa davam edə bilərlər və bu, səbəblərdən biridir” (bax: əvvəlki mənbəyə).

Lakin Ermənistan və havadarları Azərbaycanın inkişafının qarşısını ala bilmirlər. Prezident İlham Əliyev görüşdə ölkənin əldə etdiyi nailiyyətləri konkret faktlarla ifadə edib. Azərbaycan bütün sahələrdə ciddi uğurlar əldə edib. Davos İqtisadi Forumunun iqtisadiyyatın rəqabət qabiliyyəti üzrə hesabatında Azərbaycan 140 ölkə arasında 35-ci yerdədir (bax: əvvəlki mənbəyə). Bu, MDB məkanına birinci olmaq deməkdir. Dünya miqyasında isə gənc müstəqil dövlət üçün kifayət qədər yaxşı göstəricidir. İqtisadi islahatlar, enerji layihələri, regional əməkdaşlıq, nəqliyyat dəhlizlərinin yaradılması kimi sahələrdə rəsmi Bakının atdığı səmərəli addımlar hər kəsə məlumdur.

Təsadüfi deyil ki, Qərbin siyasi liderləri Azərbaycanı qlobal enerji təhlükəsizliyinin təmin edilməsində mühüm faktor kimi qəbul edirlər. TAP, TANAP, “Cənub qaz dəhlizi”, Bakı-Tbilisi-Ceyhan neft boru xətti, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin dünya üçün əhəmiyyəti haqqında kifayət qədər geniş fikirlər ifadə edilib. Bütün bunları dövlət başçısı lakonik şəkildə bir daha görüş iştirakçılarının diqqətinə çatdırıb.

# Azərbaycan və "Şərq tərəfdaşlığı": əməkdaşlığın əsas şərtləri



Prezident İlham Əliyev ikitərəfli və üçtərəfli əməkdaşlıq formatlarının, sivilizasiyalar və mədəniyyətlərarası dialoq prosesinin təşkil edilməsinin təşəbbüskarıdır. Bu formatlar kifayət qədər fayda verib və həmin proses davam edir. Bunlara ölkə rəhbərliyinin multikulturalizm sahəsində atdığı addımları da əlavə etmək lazımdır. Azərbaycan hazırda multikulturalizm üzrə dünyaya nümunədir. Artıq bu məsələ ilə bağlı Azərbaycan modelindən danışırlar.

Nəhayət, dövlət başçısı Avropa İttifaqı üçün çox əhəmiyyətli olan "Şərq tərəfdaşlığı" proqramı ilə bağlı da konkret fikirlərini nümayəndə heyətinə ifadə edib. Məlumdur ki, Azərbaycan Prezidenti Aİ ilə Azərbaycan arasındakı münasibətləri tənzimləyən və onun inkişaf perspektivini göstərən yeni təklif irəli sürüb. Bu məsələni dövlət başçısı bu ilin fevral ayında Brüsselə səfərində geniş müzakirə edib. Avropa İttifaqı bu təklifi qəbul edərək, onunla bağlı danışıqlara başlayıb. Bununla da rəsmi Bakının Aİ ilə əlaqələrdə fərdi yanaşma modelinə üstünlük verməsi ilə əlaqədar nümayiş etdirdiyi mövqe qəbul olunub. Hazırda tərəflər arasında məhz həmin proqram üzrə əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı müzakirələr davam edir. Buna görə də İlham Əliyev noyabrın 24-də Brüsseldə keçirilməsi planlaşdırılan "Şərq tərəfdaşlığı" sammitinə qatılacağını nümayəndə heyətinə söyləyib (bax: əvvəlki mənbəyə).

## Aİ-nin ikili standartları: son qoymağın zamanı çoxdan çatıb

Dövlət başçısının hərtərəfli və dolğun nitqini diqqətlə dinləyən nümayəndə heyətinin üzvləri də öz fikirlərini ifadə edib və bir sıra suallara cavab almağa çalışıblar. Sonra Avropa İttifaqı Şurasının Siyasi və Təhlükəsizlik Komitəsinin sədri Valter Stivens, Avropa İttifaqının Brüsseldə akkreditə edilmiş Fransadan olan səfiri Nokalas Suran, Avropa İttifaqının Brüsseldə akkreditə edilmiş Bolqarıstandan olan səfiri Gergana Karadjovam və Avropa İttifaqının Brüsseldə akkreditə edilmiş Almaniyadan olan səfiri Mixael Flüger çıxış ediblər.

Onların hamısı Azərbaycanın nailiyyətlərini vurğulayıblar. Ancaq heç biri Ermənistanın təcavüzü haqqında konkret fikir bildirməyiblər. Dağlıq Qarabağ və ətraf rayonların ermənilər tərəfindən işğalına son qoyulması bağlılığında ciddi təklif etməyiblər. Əvəzində, yenə də Azərbaycanda insan haqları sahəsində "pozuntular"dan bəhs edib, ifadə azadlığı və toplaşmaq azadlığındakı "məhdudiyyətlərə" işarə edib, Ermənistanla dialoqdan danışıblar.

Valter Stivens Azərbaycanın uğurlarından bəhs etdikdən sonra deyib: "...Bu baxımdan, icazə verin narahatlıq doğuran bəzi məsələləri də qeyd edim. Söhbət ölkədə ifadə azadlığı, toplaşmaq azadlığından gedir. Müəyyən şəxslərin azadlıqdan məhrum olunması ilə bağlı bəzi məlum işlər var" (bax: əvvəlki mənbəyə). Yekunda isə Avropa İttifaqı Şurasının Siyasi və Təhlükəsizlik Komitəsinin sədri Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar qeyd edib: "Dağlıq Qarabağa gəldikdə, fikrimcə, siz Ermənistan prezidenti ilə Brüsseldə olduğunuz zaman prezident Tusk fikrini çox aydın şəkildə qeyd etdi. Biz çox istərdik ki, status-kvo deyil, siyasi nizamlanma tapılsın. Həmsədrləri bu baxımdan tam dəstəkləyirik" (bax: əvvəlki mənbəyə). Bu fikirlərə diqqət edin.

V.Stivens bilə-bilə ki, "müəyyən şəxslər" konkret cinayət əməllərinə görə həbsdədirlər, aydın surətdə onların azadlığa buraxılmasını tələb edir. Ancaq milyonlarla insanı yurdundan didərgin salmış, yüzminlərlə dinc adamın həlak olmasına səbəb olmuş, çoxlu sayda mülki vətəndaşı əsir almış Ermənistanın təcavüzkarlığına "dur" demir, ənənəvi olaraq ümumi sözlərlə "məsləhət" verir, ağıl öyrətmək istəyir. Cənab ifadə edir ki, həmsədrləri tam dəstəkləyir. Bu, həmin həmsədrlərdir ki, 20 ildən çoxdur münaqişənin həlli ilə bağlı heç bir real iş görməyib, passivlik nümayiş etdirib və ikili standartlarla işləyiblər. Bunları dəstəkləyirsiniz?

Fransanı təmsil edən Nokalas Suran da maraqlı mövqe bildirib. Bütövlükdə Helsinki Yekun Aktında dövlətlərin ərazi bütövlüyünün qorunması aspektində obyektiv fikir deyən səfir, yekunda düşündürücü tezis deyib. O, Cənubi Qafqazı nəzərdə tutaraq "biz terrorçuluğun mövcud olduğu regiondayıq" söyləyib (bax: əvvəlki mənbəyə). Gözləmək olardı ki, fransalı nümayəndə erməni terrorunun fəsadlarından bəhs edəcək. Lakin o, İŞİD məsələsinə işarə edərək, buna münasibət bildirilməsini istəyib. Bu da ikili standart nümunəsidir. Çünki Cənubi Qafqaz üçün bütün böyük faciələr birbaşa erməni terrorundan qaynaqlanıb. Bunu deməmək heç ədalətli deyil. Həmin faktı vurğuladıqdan sonra İŞİD, yaxud "əl-Qaidə"dən danışılmasını hər kəs başa düşər.

Nümayəndə heyətinə daxil olan digər səfirlər də təqribən eyni məntiqlə çıxış ediblər. Onları əsas olaraq Azərbaycanın Avropa Şurasından çıxıb-çıxmaması maraqlandırıb. Almaniyanı təmsil edən Mixael Flüger isə Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü pozmasından söz salmadan, dövlət başçısından Ukraynanın ərazi bütövlüyünə münasibətini soruşub. Onu daha çox isə Azərbaycanın Avropa Şurasını tərk edib-etməməsi narahat edirmiş. Hətta çıxmamaqla bağlı Prezidentdən xahiş edib.

Təbii ki, bütün bunları başa düşürük. Lakin ölkə başçısı İlham Əliyevin Aİ nümayəndələrinin ifadə etdikləri fikirlərə verdiyi cavablar mövcud vəziyyəti dolğun və dəqiq ifadə edir. İlham Əliyev açıq, aydın və konkret ifadə edib: "Münaqişəyə yanaşma məsələsinə gəldikdə, xüsusilə də "Şərq tərəfdaşlığı" zirvə görüşü zamanı bizim gözləntimiz ondan ibarətdir ki, postsovet məkanında mövcud olan bütün münaqişələrə münasibətdə Avropa Komissiyası tərəfindən vahid yanaşma nümayiş etdirilsin. Əks təqdirdə, biz haqlı olaraq bunu ikili standartlar yanaşması kimi qəbul edəcəyik. Bu səbəbdən, Dağlıq Qarabağla bağlı yekun bəyannamənin mətnində ərazi bütövlüyünə dair məsələnin aydın ifadə olunması çox vacibdir" (bax: əvvəlki mənbəyə).

Mövqe aydındır. Azərbaycan bundan sonra da müstəqil xarici siyasətini davam etdirəcək. Avropa İttifaqı ilə də əlaqələr həmin prinsip əsasında inkişaf etdirilə bilər. Bakı regionda sülh və barışın tərəfdarıdır. Bunun üçün konkret addımlar atır. Yalnız Qərb mövcud vəziyyəti obyektiv qiymətləndirməli və konkret olaraq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində ikili standartlara son qoymalıdır. Eyni qayda ilə süni olaraq Azərbaycanda insan haqlarının pozulması hallarını axtarmağı dayandırmalıdırlar. Bununla bağlı Prezident Avropada dinc nümayişçilərin və etirazçıların üstünə it qısqırdan polisin olmasını xatırladıb. Azərbaycanda isə belə hallar yoxdur. Bunu nəzərə almalıdırlar.

Dövlət başçısı Avropa İttifaqının "Şərq tərəfdaşlığı" proqramı ilə bağlı öz qətiyyətli mövqeyini bir daha təkrarlayıb. Bildirib ki, rəsmi Bakı strateji xarakter daşıyan və bərabərhüquqlu əməkdaşlığa əsaslanan əlaqələrin inkişafında maraqlıdır. Təklif verilib və ümid edilir ki, Brüssel sammitində müəyyən nəticələr əldə ediləcək.

Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının Siyasi və Təhlükəsizlik Komitəsinin nümayəndə heyətini qəbul edərkən ifadə etdiyi fikirlər bir daha göstərir ki, Azərbaycan müstəqil mövqeyindən heç bir halda çəkilməyəcək. Onun istənilən beynəlxalq təşkilatlarla əlaqələri yalnız bu çərçivədə qurula bilər. Konkret Avropa Şurasına gəldikdə isə, ölkə rəhbəri əməkdaşlığın hər iki tərəf üçün əhəmiyyətli olduğunu ayrıca vurğulayıb. Bu o deməkdir ki, Azərbaycanın maraqlarına uyğun olmayan məqamlar davam etsə, ölkə həmin təşkilatı tərk edə bilər və bundan Aİ də zərər görər. Çünki Azərbaycan Cənubi Qafqazın lider dövləti kimi bütün sahələrdə səmərəli, sivil, demokratik ruhlu əməkdaşlıq aparan ölkədir. Bu regionda Azərbaycanı başqa heç bir dövlət əvəz edə bilməz!

***Kamal Adıgözəlov***
***Newtimes.az***

## Küveyt qəzeti: "Azərbaycan: Asiya ilə Avropanı birləşdirən dəmir yolunun açılışı"


الراي

Küveytdə böyük oxucu auditoriyasına malik "Əl-Rəy" qəzetinin 31 oktyabr tarixli buraxılışında "Azərbaycan: Asiya ilə Avropanı birləşdirən dəmir yolunun açılışı" sərlövhəli məqalə dərc edilib.

Azərbaycanın Küveytdəki səfirliyindən AZƏRTAC-a bildiriblər ki, məqalədə Rusiya ərazisindən keçməklə Çindən Qərbi Avropaya sərf olunan vaxtın azaldılması məqsədini daşıyan, üç ölkəni - Azərbaycan, Gürcüstan və Türkiyəni birləşdirən dəmir yolu xəttinin cari il oktyabrın 30-da işə düşdüyü barədə məlumat verilib. Yolun 826 kilometr uzunluğunda olduğu və bu xəttin Bakı, Tbilisi və Qars şəhərlərini birləşdirdiyi qeyd edilib.

Məqalədə bildirilib ki, Qafqaz regionunun neftlə zəngin ölkəsində yerləşən Ələt şəhərində Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev çıxış edib. Dövlət başçısının çıxışı zamanı bu xəttin Çin ilə Avropa arasında səyahət müddətini azaltmağa kömək edəcəyini, Bakı-Tbilisi-Qars dəmir yolunun Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yol olduğunu bildirdiyi diqqətə çatdırılıb.

Qeyd edilib ki, 1 milyard ABŞ dolları dəyərində olan bu yol vasitəsilə ilkin mərhələdə 5 milyon ton, sonrakı mərhələdə 17 milyon ton, daha sonra isə daha böyük həcmdə yüklərin və ildə 1 milyon sərnişin daşınmasının nəzərdə tutulduğu bildirilib. Avropa İttifaqının Bəyanatında Bakı-Tbilisi-Qars dəmir yolunun açılışının qədim İpək Yolu boyu Avropa İttifaqı, Türkiyə, Gürcüstan və Azərbaycanı birləşdirən nəqliyyat sistemi bağlantıları sahəsində atılan böyük addım olduğunun vurğulandığı diqqətə çatdırılıb.

## Rasim Musabəyov: "Bakı-Tbilisi-Qars dəmir yolu xətti geosiyasi cəhətdən çox əhəmiyyətlidir"



Bakı-Tbilisi-Qars dəmir yolu xətti geosiyasi cəhətdən çox əhəmiyyətlidir. Bu fikri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Rasim Musabəyov deyib. Rasim Musabəyov bildirib ki, Cənubi Qafqaz regionu geostrateji körpü rolunu oynayır. Qara dəniz və Xəzər dənizi hövzələri arasında, Şərq və Qərb arasında bu rolu həyata keçirmək üçün müəyyən kommunikasiyalara ehtiyac var. Azərbaycan bu kommunikasiyaların çəkilməsində aparıcı rol oynayır. Bunlara misal kimi, Bakı-Tbilisi-Ceyhan neft kəmərini, Bakı-Tbilisi-Ərzurum qaz kəmərini, "Cənub Qaz Dəhlizi" layihəsini və nəhayət, Bakı-Tbilisi-Qars dəmir yolunu xüsusi qeyd etmək olar. Bu layihələrin gerçəkləşməsi Cənubi Qafqaz regionunun geostrateji əhəmiyyətini artırır. Bütün bu layihələrin arxasında Azərbaycan dayanır. Bu layihələr məhz Azərbaycanın təşəbbüsü ilə gerçəkləşir. Bununla da Azərbaycanın strateji əhəmiyyəti daha da artır.

## Sahib Alıyev: "Bakı-Tbilisi-Qars layihəsi Türk dünyasını birləşdirən bir layihədir"



Bakı-Tbilisi-Qars layihəsi Türk dünyasını birləşdirən bir layihədir. Bu sözləri Milli Məclisin deputatı Sahib Alıyev AZƏRTAC-a açıqlamasında deyib. O bildirib ki, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Bakı-Tbilisi-Qars dəmir yolunun açılış gününü qürur günü adlandırıb. Həqiqətən bu günü belə adlandırmaq çox doğrudur. Bakı-Tbilisi-Qars yalnız Asiya ilə Avropanı bir-birinə yox, həm də polad qollarla Azərbaycanı Türkiyəyə, eyni zamanda, Türk dünyasını biri-birinə birləşdirir. Bakı-Tbilisi-Qars dəmir yolunun açılışında Türk dünyasının baş nazirlərinin və nazirlərinin iştirakı da təsadüfi deyil.

Deputat qeyd edib ki, Bakı-Tbilisi-Qars dəmir yolunun iqtisadi əhəmiyyəti də çox böyükdür. Bu, uzun illər davam edəcək bir layihədir. Layihə Çinlə Avropa arasında iqtisadi əlaqələri möhkəmləndirmək və yükdaşımalarını artırmaqla bərabər, həmçinin multimodal daşımaları da artıracaq. Türkmənistan dövlətinin imkanı olacaq öz qazını maye qaz halında Azərbaycana və oradan dünya bazarına daşısın. Azərbaycan və Qazaxıstanın istehsal potensialının genişləndiyini də nəzərə alsaq, bu dəmir yolu xətti heç zaman öz dəyərini itirməyəcək və yükdaşıma potensialını zaman keçdikcə daha da artıracaq.

## Vüqar Rəhimzadə: "Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı çox böyük tarixi hadisədir"



Bu il Azərbaycan üçün kifayət qədər mühüm tarixi məqamlarla yadda qalacaq. Beynəlxalq birliyin diqqət mərkəzində olan "Yeni əsrin müqaviləsi"nin imzalanması, üstəlik bu günlərdə Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xəttinin istifadəyə verilməsi bunun bariz nümunəsidir. Bakıdan başlayaraq Gürcüstanın Tbilisi və Axalkalaki şəhərlərindən keçərək Türkiyənin Qars şəhərinə gedən, beləliklə, Azərbaycan ilə Türkiyəni, Şərqlə Qərbi birləşdirən bu dəmir yolu xətti ölkəmizə böyük siyasi və iqtisadi dividendlər gətirəcək.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib.

Bakı-Tbilisi-Qars dəmir yolunun açılışının çox böyük tarixi hadisə olduğunu söyləyən V.Rəhimzadə deyib: "Yadınızdadırsa, 2005-ci ildə BTC-nin Azərbaycan hissəsinin açılışında BTQ dəmir yolu xətti layihəsi haqqında bəyannamə, 2007-ci ildə isə dəmir yolu xəttinin tikintisinə başlanılması ilə əlaqədar Saziş imzalandı. Xüsusi olaraq vurğulamaq lazımdır ki, Bakı-Tbilisi-Qars layihəsinin reallaşmasında məhz Azərbaycanın böyük rolu olub. Bu amil isə bir daha onu göstərir ki, Azərbaycan regional və qlobal əhəmiyyətli layihələrin əsas iştirakçısı və təşəbbüskarıdır". YAP Siyasi Şurasının üzvü qeyd edib ki, bu layihənin reallaşması Azərbaycan, Türkiyə və Gürcüstanın birliyinin yüksək səviyyədə olduğunu göstərir. Bakı-Tbilisi-Qars dəmir yolunun açılış mərasimində çıxış edən Prezident İlham Əliyev bir sıra mühüm məqamlara aydınlıq gətirdi. Dövlətimizin başçısı bildirdi ki, çoxları, xüsusilə bəzi xarici dairələr Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə inanmırdılar. Hesab edirdilər ki, bu layihənin reallaşması mümkün deyil. Bunun reallaşması üçün lazım olan texniki imkanlar və maliyyə vəsaiti imkan verməyəcək ki, bu layihə həyata keçirilsin. Lakin üç ölkə sübut etdi ki, bu, mümkündür. Azərbaycanın güclü iradəsi, qarşılıqlı dəstək, inam olan yerdə bütün işləri görmək mümkündür. Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi bunun sübutudur. Prezident İlham Əliyev regional əməkdaşlığa ən böyük töhfə verən ölkələr - Azərbaycan, Gürcüstan və Türkiyənin bundan sonra da daim bir yerdə olacaqlarına, bir-birlərini dəstəkləyəcəklərinə əminliyini ifadə etdi. Hesab edirəm ki, bu əməkdaşlıq region və dünya üçün təhlükəsizlik, sülh və inkişaf vəd edir. "İki sahil" qəzetinin baş redaktoru əlavə edib ki, uzunluğu 840 kilometr olan BTQ dəmir yolu xətti ölkəmizin beynəlxalq tranzit və logistika mərkəzlərindən birinə çevrildiyinin göstəricisidir. Bu dəmir yolu xətti Şərqdən Qərbə qədər olan böyük məsafədə yük və sərnişin daşımalarında vaxt və maliyyə sərfiyyatını azaldacaq. Bununla yanaşı, Bakı-Tbilisi-Qars, həmçinin ölkə iqtisadiyyatının inkişafına da böyük dərəcədə müsbət təsir göstərəcək. Nəticədə ölkəmizin ilk illərdə tranzitdən minimal gəliri təxminən 50 milyon dollara bərabər olacaq. Sözsüz ki, bütün bunlar ilkin proqnozlardır. Zaman keçdikcə Bakı-Tbilisi-Qars layihəsinin region və dünya üçün əhəmiyyəti daha aydın görünəcək.

Vüqar Rəhimzadə vurğulayıb ki, BTQ-yə beynəlxalq diqqət və dəstək də çox böyükdür. Dəmir yolu xətti Avropa İttifaqı, ABŞ və Mərkəzi Asiya ölkələri tərəfindən dəstəklənir. "BTQ-nin istifadəyə verilməsi ilə bağlı yayılan bəyanatlarda da biz bunu açıq şəkildə görürük. Avropa İttifaqının Azərbaycan nümayəndəliyinin bəyanatında qeyd edilir ki, qurum yeni dəmir yolu dəhlizini alqışlayır. Avropa İttifaqı əmin olduğunu bildirir ki, bu layihə sərmayələr, infrastrukturun təkmilləşdirilməsi və logistikanın əlaqələndirilməsi ilə birgə bağlantıların daha yaxşı qurulmasına, yeni biznes imkanlarının yaranmasına və ticarətin artmasına səbəb olacaq. Bu və digər amillər dəmir yolu xəttinin əhəmiyyətini artırmaqla yanaşı, ölkəmizin beynəlxalq miqyasdakı nüfuzunu daha da möhkəmləndirəcək",- deyə Vüqar Rəhimzadə bildirib.

## Gürcüstanlı deputat: Bakı-Tbilisi-Qars dəmir yolu xətti region dövlətləri üçün yeni imkanlar açacaq



Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin açılması tarixi hadisədir. Bu layihə Azərbaycan, Türkiyə və Gürcüstan, eləcə də onların tərəfdaşları üçün yeni imkanlar açacaq. Bu fikri AZƏRTAC-a məxsusi açıqlamasında Gürcüstan parlamentinin Avropaya inteqrasiya komitəsinin sədri Tamara Xulordava deyib.

T.Xulordava qeyd edib ki, bu layihə region ölkələri üçün yeni iqtisadi perspektivlər yaradacaq. "Azərbaycan, Türkiyə və Gürcüstan yerləşdikləri geostrateji mövqeyə görə Asiya ilə Avropa arasında körpü rolunu layiqincə yerinə yetirir. Düşünürəm ki, bu layihə də iqtisadiyyatın yeni inkişaf mərhələsi olacaq", deyə Gürcüstan parlamentinin deputatı əlavə edib. O qeyd edib ki, Bakı-Tbilisi-Qars dəmir yolu xətti dünya üçün bir sülh, təhlükəsizlik, ölkələrin bir-birindən səmərəli faydalanmaq çağırışıdır. Gürcü deputat hesab edir ki, zaman keçdikcə Bakı-Tbilisi-Qars dəmir yolu xəttindən istifadə edən ölkələrin sayı artacaq.

## Bolqarıstanın vitse-prezidenti Dünya Xəbər Agentlikləri Konqresi Şurasının üzvləri ilə görüşüb

Bolqarıstanın vitse-prezidenti İliana Yotova Sofiyada Dünya Xəbər Agentlikləri Konqresi Şurasının üzvləri ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə 2019-cu ildə Sofiyada keçiriləcək Dünya Xəbər Agentliklərinin VI Konqresinə hazırlıq, müasir medianın cəmiyyətdə rolu, yalan xəbərlərlə mübarizə kimi məsələlər diqqət mərkəzində olub. "Mən çox istərdim ki, media qabaqcıl, qərəzsiz və obyektiv olsun. İndiki dövrdə həqiqəti əks etdirən xəbərlərə böyük ehtiyac var. Yalan xəbərlər bütün cəmiyyətə, iqtisadiyyata, sosial həyata mənfi təsir göstərə bilər", - deyə İliana Yotova qeyd edib.



O bildirib ki, Dünya Xəbər Agentlikləri Konqresi media sahəsində əlamətdar hadisələrdən biridir və Bolqarıstan hökumətinin diqqətindədir. BTA agentliyinin baş direktoru, Dünya Xəbər Agentlikləri Konqresinin baş katibi Maksim Minçev 2019-cu ildə Sofiyada keçiriləcək VI Konqres haqqında məlumat verib, bu böyük media tədbirində dünyanın hər yerindən informasiya agentliklərinin iştirak edəcəyini deyib.

AZƏRTAC-ın baş direktoru, Dünya Xəbər Agentlikləri Konqresinin prezidenti Aslan Aslanov bildirib ki, V Konqres ötən ilin noyabrında Heydər Əliyev Fondu və AZƏRTAC tərəfindən Bakıda təşkil edilib. O, AZƏRTAC-ın VI Konqresin Sofiyada uğurla keçirilməsi üçün BTA agentliyinə lazımi dəstək göstərəcəyini vurğulayıb.

# Azərbaycan düzgün strategiya nəticəsində böyük uğurlara nail olub

*Milli Məclisin deputatı Elşən Musayevin yap.org.az-a müsahibəsi*

***- Elşən müəllim, son vaxtlar müəyyən beynəlxalq dairələr tərəfindən Azərbaycana qarşı yenə də qərəzli kampaniyalar aparılır. Sizcə, bu kampaniyaların kökündə hansı amillər dayanır?***



- Ən böyük amil Azərbaycan iqtidarının yürütdüyü uğurlu, müstəqil siyasət və Azərbaycan Prezidentinin bütün məsələlərdə, aspektlərdə sərgilədiyi qətiyyətli mövqedir. O siyasət, o mövqe ki, heç bir kənar şərtləri, müdaxiləni, hansısa ölkənin diktəsini özündə ehtiva eləmir. Üstəlik, qarşıdan Prezident seçkiləri gəlir. Təbii, anti-Azərbaycan qüvvələri, müəyyən şəbəkələr bir şəkildə ürək bulandrmağa çalışacaqlar. Çünki Azərbaycanı sevməyən məlum qüvvələrin ölkə daxilində də məlum şəbəkəsi var. Biz onlara "5-ci kolon" deyirik. Həmin buqələmunlar, xalq düşmənləri müxtəlif formatlarda danoslar, anonimlər, yalan informasiyalar hazırlayaraq xaricə ötürür, mövcud hakimiyyəti gözdən salmağa çalışırlar. Amma çifayda. İllərdir effect vermir. Verməyəcək də. Çünki haqsızdırlar, ədalətsizdirlər, mübarizəni kişi kimi aparmırlar. Təsəvvür edin, erməni lobbisi və bu ələkçilərə qıl verənlər ən mötəbər qurumlara qədər sızıblar. Avropa Şurası nəhənglikdə qurum bir cinayətkara görə öz nüfuzunu necə zərbə altında qoyub və Azərbaycan hakimiyyəti ilə tələb formasında danışır, əleyhimizə qətnamələr qəbul etdirir. Halbuki, həmin cinayətkar bu ölkədə ən sanbalsız siyasətçinin belə qarşısına çıxacaq biri deyil. Sadəcə Azərbaycan hüquqi dövlətdir. Cinatəyi törədən üçünsə cəza nəzərdə tutulub. Hamının üzərinə siyasi damğa vurmaq olmaz. Avropanın təklif elədiyi odur ki, hüquqi nihilizm tətbiq edin. Yəni sizdə hüquq işləməsin. Bizsə deyirik, gedin işinizlə məşğul olun, bizim daxili işlərimizə qarışmayın. Bir insanı bu cür müdafiə edəcəyinizə, gedin 1 milyon qaçqının taleyini həll edin, erməniyə yerini göstərin, dünyada ədalətin bərpasına çalışın. Amma görünən budur ki, Avropanın və oradakı bəzi şəxslərin fərdi marağı qlobal maraqlardan daha üstündür.

***- Azərbaycan və Ermənistan prezidentlərinin Cenevrə görüşü ilə təxminən eyni vaxtda ABŞ Helsinki Komissiyası Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dinləmələr keçirdi. Bu dinləmələrin keçirilməsində məqsəd nədir?***

- Bu dinləmələr periodik xarakterlidir və erməni mövqeyini ifadə edən bir təzahüratdır. Bir əlavəni də edim ki, adının əvvəlində iri hərfli ABŞ sözü olsa da Helsinki Komissiyası əslində ermənilərin və ermənipərəstlərin toplandığı qurumdur. Bir Komissiyanın ki, əsas fiquru Kristofer Smit ola, orada ədalətdən danışmağa, dəm vurmağa dəyərmi? Adam saxta "erməni soyqırımı"nın ən böyük təəssübkeşlərindən, dəstəkçilərindəndir, bütün varlığı ilə türkə, türk könlünə nifrət edir, Amerikada Erməni Milli Komitəsinin radikal rəhbəri Aram Hamparyanla dostluq münasibətindədir. Beləsindən orijinal, mərkəzçi, obyektiv fikir gözləmək olarmı? Yox, təbii. Amma məni bir Azərbaycan vətəndaşı olaraq bundan daha çox üzən məsələ var. Söhbət sapı özümüzdən olan baltalardan gedir. Parlamentin son iclasında da bu haqda danışdım. Çox acınacaqlı bir mövzudur. Ölkəmizdə özünü radikal müxalifət adlandıran kəsimin rəhbəri özü kimi nanəcib övladını Helsinki Komissiyasının bütün dinləmələrində Azərbaycana qarşı danışdırır, erməni tərəfin mövqeyini müdafiə elətdirir, həmin Smitin düz yanında əyləşdirir. Mübarizəni ilk öncə beləleri ilə aparmaq lazımdır. Ümumilikdə Helsinki Komissiyasının məqsədlərinə gəlincə isə bu ilk öncə erməni lobbisinin fəaliyyətini stimullaşdırmaq, eyni zamanda Dağlıq Qarabağla bağlı zaman manevri etmək niyyətini güdür. Hər zaman olduğu kimi.

***- Prezidentlərin görüşündən sonra Ermənistan tərəfinin verdiyi bəyanatlara da münasibətinizi bilmək istərdik...***

- Erməni tərəf panikadadır. Özləri də anlayır ki, zaman yetişib. Düzdür Sarkisyan bunu yorğunluq aspektində dəyərləndirməyə çalışdı, amma hətta bu deyilişdə də bir özünüifşa var idi. Artıq gerçəkdən müzakirə olunası bir şey qalmayıb. Torpaqlar qayıtmalıdır və Sarkisyanın etiraf əslində nökəri olduğu dövlətə ismarıc idi ki, imkan verin bu zillətdən qurtulaq, Azərbaycan onsuzda enində-sonunda öz halal haqqına qovuşacaq. Başqa variant yoxdur.

***- Bu gün Azərbaycanın daxili və xarici siyasət kursu müstəqillik prinsipinə əsaslanır. Azərbaycan müstəqil dövlət kimi dinamik inkişaf yolunda əmin addımlarla irəliləyir. Bu barədə fikirlərinizi bilmək istərdik. Dünyadakı iqtisadi böhran şəraitində Azərbaycanın qazandığı uğurların önəmi haqqında nə deyə bilərsiniz?***

- Azərbaycan düzgün strategiya ilə getdiyi üçün uğurlara nail olub. Bu uğurların memarı isə Ulu öndərimiz Heydər Əliyevdir. Onun ideyaları, bizlərə miras qoyduğu Azərbaycançılıq yolu nə qədər layiqli formada davam edəcəksə, inkişaf da bir o qədər davamlı olacaq. Ölkə Prezidenti cənab İlham Əliyev müstəqilliyimizin qarantıdır, həm də ən yüksək səviyyədə qarantıdır. Başqa ölkələrin də prezidentləri var, öz şəxsi maraqları üçün həmin "qarant" anlayışını sözdən, şablondan o yana keçirmirlər. Amma bizim Prezident milli maraqlar üçün, öz vətəndaşının haqqı üçün sözün gerçək anlamında qətiyyətlə, mərdliklə mübarizə aparan bir liderdir. Onu sona qədər qorumalıyıq ki, O da Azərbaycanımızı hər zamanki kimi qoruya bilsin. Ölkəmiz, doğma Azərbaycanımız Prezident İlham Əliyevin rəhbərliyi altında hələ çox uğurlara imza atacaq.

# Bakı-Tbilisi-Qars Dəmir Yolu dövlətlərarası münasibətləri daha da möhkəmləndirəcək



Azərbaycanın müstəqillik tarixinə ən əlamətdar hadisələrdən biri kimi həkk olunan Bakı-Tbilisi-Qars Dəmir Yolunun açılışı ölkə başçısının qətiyyəti və siyasi iradəsinin nəticəsidir. Regionda sülhün və təhlükəsizliyin möhkəmlənməsinə töhfə verən Azərbaycan növbəti dəfə bütün dünyaya bəyan etdi ki, ölkəmizin təşəbbüsü ilə qlobal əhəmiyyətli layihələr həyata keçirilir. Bakı-Tbilisi-Qars Dəmir Yolunun açılışı regionda sabitliyə eləcə də, iqtisadi inkişafa böyük töhfədir. Tarixi İpək Yolu üzərində qurulan bu yol Transavropa və Transasiya Dəmir Yolu şəbəkələrinin birləşməsində böyük əhəmiyyət daşıyır. Bakı-Tbilisi-Qars Dəmir Yolu Mərkəzi Asiya ölkələrinin - Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistan, həmçinin, Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışını asanlaşdırır. Azərbaycan Prezidenti İlham Əliyev Bakı-Tbilisi-Qars Dəmir Yolunun açılış mərasimindəki çıxışında bu yolun tikintisinin Azərbaycan-Gürcüstan-Türkiyə arasındakı dostluğun, qardaşlığın nəticəsi olduğunu vurğulayıb: "Üç ölkə bütün sahələrdə uğurla əməkdaşlıq edirlər, bir-birini dəstəkləyirlər, ölkələrimiz və xalqlarımız üçün önəmli olan, dünya üçün önəmli olan layihələri icra edirlər. Bakı-Tbilisi-Qars bu layihələrin arasında öz layiqli yerini tutmuş bir layihədir".

Belə bir tarixi hadisəyə imza atan Azərbaycan bu gün yenidən dünya mətbuatının gündəmindədir. Azərbaycanın ictimai-siyasi və mədəni həyatı ilə bağlı hadisələri işıqlandıran dünya mətbuatında yer alan məlumatlar növbəti dəfə ölkəmizin real mənzərəsini göz önündə canlandırır.

## "TÜRKİYƏ, AZƏRBAYCAN VƏ GÜRCÜSTAN LİDERLƏRİ BAKI-TBİLİSİ-QARS DƏMİR YOLUNU AÇDILAR"




Dünyanın böyük marağına səbəb olan Bakı-Tbilisi-Qars Dəmir Yolunun açılışı haqqında İspaniyanın "EFE" informasiya agentliyində dərc olunan "Türkiyə, Azərbaycan və Gürcüstan liderləri Bakı-Tbilisi-Qars Dəmir Yolunu açdılar" sərlövhəli məqalədə layihənin böyük iqtisadi əhəmiyyətindən söz açılır. Məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin Bakı-Tbilisi-Qars Dəmir Yolunun açılış mərasimindəki çıxışına xüsusi diqqət ayrılıb. Azərbaycan Prezidenti İlham Əliyevin Bakı-Tbilisi-Qars Dəmir Yolunu Avropa və Asiya arasında ən qısa yol adlandıraraq, onu sabitlik və təhlükəsizliyin təminatçısı kimi səciyyələndirməsi xüsusi vurğulanıb. Prezident İlham Əliyev Bakı-Tbilisi-Qars tarixi layihədir, qlobal layihədir deyərək bu layihənin ölkələri bir-birinə daha yaxın edəcəyin bildirib: "Bu layihə bölgədə sabitliyin və təhlükəsizliyin təminatı işində öz rolunu oynayacaq. Bu layihə bizim iqtisadi imkanlarımızı artıracaq və biz böyük vəsait əldə edəcəyik. Əlbəttə, bir daha demək istəyirəm ki, bu layihənin həyata keçirilməsi ancaq Azərbaycan, Gürcüstan və Türkiyənin birgə səyləri hesabına mümkün olmuşdur. Biz heç bir yerdən heç bir yardım, heç bir kredit almadıq, öz daxili imkanlarımız hesabına bu yolu tikdik və bu gün istifadəyə veririk".

İspaniya nəşri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın açılış mərasimindəki nitqindən də sitatlar verib. Qeyd olunur ki, Rəcəb Tayyib Ərdoğan bu yol sayəsində qatarların Pekindən Londona hərəkət edə biləcəklərini xatırladıb. Məqalədə Bakı-Tbilisi-Qars Dəmir Yolunun texniki göstəriciləri və daşıma imkanları haqqında ətraflı məlumat verilib.

## BAKI-TBİLİSİ-QARS DƏMİR YOLU AVRASİYANIN NƏQLİYYAT XƏRİTƏSİNİN ÖNƏMLİ HİSSƏSİNƏ ÇEVRİLİR

Avropa ilə Asiyanı birləşdirən və dünyanın 100 böyük layihəsi siyahısına daxil olan Bakı-Tbilisi-Qars Dəmir Yolu xəttinin TARİXİ əhəmiyyəti ilə bağlı Türkiyənin nüfuzlu "TRT HABER" televiziya kanalı da geniş reportaj yayıb. Reportajda diqqətə çatdırılıb ki, Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu iqtisadi layihənin gerçəkləşməsi naminə qətiyyətli siyasi iradə nümayiş etdiriblər. Təqdim olunan reportajda Bakı-Tbilisi-Qars Dəmir Yolu xəttini gerçəkləşdirən amillər, onun tikintisinə böyük məbləğdə maliyyə vəsaitinin sərf olunması, yolun üstünlükləri, yaratdığı yeni perspektivlər və s. məqamlardan bəhs olunub. Qeyd olunub ki, Avrasiya məkanı üçün yeni yüksəliş layihəsi olan Bakı-Tbilisi-Qars Dəmir Yolu xətti Qədim İpək Yolunun polad magistrallar üzərində bərpasıdır. Bu dəmir yolu, ilk növbədə, yük daşımalarındakı intensivliyi artıracaq. Prezident İlham Əliyevin vurğuladığı kimi, "Bakı-Tbilisi-Qars Dəmir Yolu Avrasiyanın nəqliyyat xəritəsinin önəmli hissəsinə çevrilir. Bu yolun fəaliyyəti nəticəsində yol boyunca yerləşən ölkələr arasındakı ticarət dövriyyəsi və qarşılıqlı sərmayə qoyuluşu artacaq. Bu yoldan istifadə edən bütün ölkələr arasındakı əməkdaşlıq dərinləşəcək".

Reportajda Bakı-Tbilisi-Qars Dəmir Yolu xəttinin təməlqoyma mərasimi, tikinti prosesi, onun indiki vəziyyəti və bu xəttin giriş və çıxış nöqtələrindəki digər təyinatlı beynəlxalq əhəmiyyətli nəqliyyat strukturlarını əks etdirən kadrlar da nümayiş olunub.

Qeyd edək ki, bu layihə ölkələr arasında ticari və iqtisadi əlaqələrin genişlənməsinə və bundan irəli gələn sabitliyə yönələn layihədir. Çindən başlayaraq bütün Orta Asiya ölkələrini əhatə etməklə Azərbaycan, Gürcüstan və Türkiyəni birləşdirərək Avropaya uzanan, Tarixi İpək Yolunun önəmli hissəsini təşkil edən Bakı-Tbilisi-Qars Dəmir Yolu xətti dövlətlər arasında münasibətlərin daha da möhkəmləndirilməsinə xidmət edəcək.

***Nəzakət ƏLƏDDİNQIZI***

# BSU-da "Elm və din" kitabının təqdimatı olub

**Bakı Slavyan Universitetinin prorektoru, professor Rafiq Novruzovun Maksim Tank adına Belarus Dövlət Universitetinin professoru Anatoli Antonoviç Girutski ilə birgə yazdığı və Moskvanın məşhur "Flinta" nəşriyyatı tərəfindən nəşr edilmiş "Elm və din" adlı dərs vəsaitinin təqdimatı olub. Kitab humanitar ixtisaslar üzrə təhsil alan tələbələr, o cümlədən, digər elm sahələrində çalışan mütəxəssislər üçün nəzərdə tutulub.**





Təqdimatı BSU-nun rektoru, professor Nurlana Əliyeva açaraq, kitabda dinlərin tarixindən, fəlsəfi əsaslarından və sonuncu din olan islamın Allah tərəfindən bəşəriyyətə bir töhfə olaraq göndərilməsindən danışıb. O, bir çox Qərb ölkələrində yayılmış islamofobiyanın, əslində, heç bir əsasının olmadığını, islamın dünyanın ən tolerant dinlərindən biri olduğunu diqqətə çatdırıb. O, R.Novruzovun kitabında Allah sevgisinin insanları düz yola çəkməsinin, islamın sülh və barış dini olmasının real həyati faktlar və nümunələrlə izah edildiyini qeyd edib. N.Əliyeva Sovet dönəmində, totalitar rejimin hər şeyi nəzarətdə saxladığı zamanda belə Azərbaycan xalqının öz dini inancından və əqidəsindən dönmədiyini vurğulayıb.

BSU-nun rektoru professor Rafiq Novruzovun "Elm və din" kitabının Azərbaycan xalqının dini təsəvvürlərinin bütün tarixi mərhələlərinə işıq saldığını, dinin fəlsəfi mahiyyətini ciddi elmi əsaslarla şərh etdiyini bildirib. N.Əliyeva müəllifin dilçi və ədəbiyyatçı olmaqla bərabər, həm də görkəmli bir filosof olduğunu, bu əsərdə mütləq həqiqət, dünya, yaradılış barədə yeni yanaşma tərzini vurğulayıb. O, R.Novruzovun bütün dinlərin vahid kökə malik olması barədə fikirlərinin Quran həqiqəti ilə üst-üstə düşdüyünü bir daha qeyd edib.

Filologiya üzrə elmlər doktoru, professor Rüstəm Kamal "Elm və din" kitabının son dərəcə aktual bir mövzuya-dinin insan həyatındakı yerinə, cism və ruh məsələsinin fəlsəfi əsaslar üzərində şərhinə həsr olunduğunu vurğulayıb. O, kitabdan gətirdiyi tezislər əsasında insan "Mən"inin birbaşa mənəviyyat və mütləq həqiqətə bağlı olması barədə qənaətlərini auditoriya ilə bölüşüb.

R.Kamal kitabdakı fikirlərin həm filosoflar, həm də ilahiyyatçı alimlər üçün maraqlı olacağını bildirib.

Tarix elmləri üzrə fəlsəfə doktoru, dosent Əsgər Əhməd kitabın dərslik olmaqdan daha çox, bir tədqiqat əsəri olmasını vurğulayıb. O, kitabda sakral mətnlərin kulturoloji aspekti barədə müəllifin tanınmış alimlərlə polemikaya girməsini və mövcud nəzəriyyələrə münasibətdə yeni mövqe sərgiləməsini əsərin ən uğurlu cəhətlərindən biri kimi dəyərləndirib. Bildirib ki, əsərin ən böyük əhəmiyyəti Allahın dərkində yeni biliklərdən istifadə perspektivlərinin nəzərə alınmasıdır.

BSU-nun prorektoru, filologiya üzrə fəlsəfə doktoru Xanım Sultanova əsərin linqivistik xüsusiyyətlərini və multikultural dəyərləri əsaslandıran ideya-məzmun keyfiyyətindən danışıb.

Sonda əsərin müəllifi, professor R.Novruzov çıxış edərək, kitabın ərsəyə gəlməsi və nəşri barədə ətraflı məlumat verib.

**ZÜMRÜD**

# "Tarixi zərurətdən yaranan Yeni Azərbaycan Partiyası"

*Bu mövzuda Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi münasibəti ilə YAP Şəmkir rayon təşkilatında tədbir keçirilib*



Yeni Azərbaycan Partiyası Şəmkir rayon təşkilatının tədbirlər planına uyğun olaraq YAP-ın yaradılmasının 25 illik yubileyi münasibəti ilə Şəmkir rayon Mərkəzi Xəstəxanası ilk partiya təşkilatında "Tarixi zərurətdən yaranan Yeni Azərbaycan Partiyası " mövzusunda tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan YAP Şəmkir rayon təşkilatı Mərkəzi Xəstəxanası ilk partiya təşkilatının sədri Abdulla Rzayev yubiley münasibətilə Mərkəzi Xəstəxanada çalışan bütün YAP üzvlərini təbrik edib. Ötən 25 il ərzində YAP-ın şərəfli yol keçdiyini deyən A.Rzayev 1990-cı illərin əvvəlində Azərbaycandakı ağır, böhranlı siyasi vəziyyətdən danışıb. Bildirib ki, 1991-1993-cü illər ərzində hakimiyyətdə olan səriştəsiz qüvvələrin yanlış siyasəti ölkədə xaosun, hərc-mərcliyin yaranmasına gətirib çıxarmışdır. Azərbaycan dövlət müstəqilliyini itirmək təhlükəsi ilə qarşı-qarşıya qaldı. Məhz həmin dövrdə Azərbaycan xalqı ölkənin xilası üçün Ulu Öndər Heydər Əliyevə üz tutdu. Ulu Öndər Heydər Əliyevin yaratdığı YAP müasir Azərbaycanın inkişafının əsas dəstəkçisinə çevrildi. A.Rzayev bildirib ki, partiyamız hər zaman milli maraqların keşiyində dayanıb və Prezident İlham Əliyevin rəhbərliyi ilə daim inkişaf edir. Tədbirdə geniş məruzə ilə çıxış edən YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev bildirib ki, YAP-ın yaranması tarixi zərurətdən irəli gəlib. Qeyd olunub ki, bu gün YAP nəinki bölgənin, həm də böyük bir coğrafiyanın ən mütəşəkkil siyasi təşkilatı sayılır: "İnanıram ki, xalqımız hər zaman Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və Möhtərəm Prezidentimiz Cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən, özündə milli maraqlarımızı ehtiva edən siyasi kursun ətrafında birmənalı şəkildə birləşəcək və dövlətimizin daha da inkişaf etməsi üçün var gücü ilə çalışacaq".



Tədbirdə çıxış edən Şəmkir rayon Mərkəzi Xəstəxanasının baş həkimi, YAP Şəmkir rayon təşkilatı sədrinin müavini Ayaz İbrahimov da ölkəmizin dünyada tanıdılması istiqamətində aparılan siyasətin mühüm uğurlar əldə etdiyini önə çəkib.

**RÖVŞƏN**

# Uğurlar davamlı olacaq

*YAP Xaçmaz rayon təşkilatının 9 saylı məktəb ərazi ilk partiya təşkilatında YAP-ın yaranmasının 25 illik yubileyinə həsr olunmuş tədbir keçirilibdir*




Dünən YAP Xaçmaz rayon təşkilatının 9 saylı məktəb ərazi ilk partiya təşkilatında YAP-ın yaranması 25 illik yubileyinə həsr olunmuş tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə YAP Xaçmaz rayon təşkilatının şura üzvü Tünzalə Salahova açaraq, partiyanın yaranma tarixi ilə bağlı məlumat vermişdir. Tədbirdə ərazi ilk partiya təşkilatının sədri Günel Kəlbəliyeva, YAP Xaçmaz rayon təşkilatının nəzdində fəaliyyət göstərən Heydər Əliyev İdeoloji Mərkəzinin direktoru Cavad Mehmanov və başqaları çıxış edərək YAP-ın xalqa, dövlətə xeyirli, gərəkli fəaliyyətindən danışmışlar, Tədbirdə YAP Xaçmaz rayon təşkilatının sədri Nazim Ağayev çıxış edərək, Yeni Azərbaycan Partiyasının yaranmasından, keçdiyi şərəfli və qürurverici tarixindən bəhs etmişdir. Bildirmişdir ki, YAP Azərbaycanın çox çətin, ağır dövründə Ulu Öndər Heydər Əliyevin böyük zəhməti hesabına yaranmışdır: "Xalqın çağırışı ilə Ümummilli Liderimiz Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra həyatımızın bütün sahələrində iqtisadi uğurlara, siyasi sabitliyə, demokratik dəyişikliklərə və elmi tərəqqiyə nail olduq. Söz yox ki, bu uğurların əldə olunmasında Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının da bu və digər formada rolu var".



N.Ağayev bu gün xalqın partiyası olan YAP-ın kəmiyyət və keyfiyyət baxımından daha da inkişaf etdiyini və bu inkişafın Ulu Öndər Heydər Əliyevin ən layiqli siyasi varisi, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni nailiyyətlərlə davam etdiriləcəyinə əmin olduğunu bildirdi.

Çıxışlardan sonra Gənc Heydərçilərin ifasında Ümummilli Liderə və partiyaya həsr olunmuş şeirlər dinlənilmiş və kompozisiyalar nümayiş olunmuşdur.

**RƏFİQƏ KAMALQIZI**

# Bakı-Tbilisi-Qars dünyanın 100 ən böyük layihələrindən biridir

***Dünyanın 100 ən böyük layihələrindən biri olan Bakı-Tbilisi-Qars Dəmir Yolu Layihəsi üç ölkənin imkanları ilə artıq reallaşdırıldı. Azərbaycan, Türkiyə və Gürcüstanın birlikdə 2007-ci ildə təməlini atdığı "Bakı-Tbilisi-Qars Dəmiryolu Layihəsi" Bakının Tbilisi üzərindən dəmiryolu vasitəsilə Qarsla, başqa sözlə, Azərbaycanın Türkiyə ilə birləşdirilməsini nəzərdə tutan layihə olmaqla, mühüm iqtisadi və strateji əhəmiyyətə malikdir.***



Mübariz Əhmədoğlu: "Avropa ilə Asiyanı birləşdirən dəmir yoludur və bu işi görən də Azərbaycandır, Azərbaycan hökumətidir"

Dəmir İpək Yolu adlanan fasiləsiz dəmiryolu şəbəkəsi Asiya və Avropa arasında yük və sərnişin daşınmasının mühüm bir hissəsinin dəmiryolu nəqliyyatına keçməsini təmin etməklə, nəqliyyat xərclərini aşağı salacağı və nəticədə İpək Yolu xəritəsində yerləşən ölkələr üçün iqtisadiyyatın inkişafına mühüm töhfə verəcəyi danılmazdır. Həmçinin, bu şəbəkə, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum boru xətləri ilə bir-birinə bağlanan Azərbaycan, Gürcüstan və Türkiyənin iqtisadiyyatının bundan sonra dəmiryolu şəbəkələrinə də inteqrasiyasını, həm də bu ölkələrin iqtisadi inteqrasiyasına xidmət etməklə yanaşı, eyni zamanda, ayrı-ayrılıqda hər bir ölkənin iqtisadi mənfəət əldə edəcəyini təmin edir. Asiya və Avropa arasında dəmiryolu nəqliyyatını həyata keçirən İranın Razi-Sarakhs, Rusiyanın isə Trans-Sibir dəmiryolu xətlərinə alternativ olan bu dəmiryol xətti yalnız, Azərbaycan, Gürcüstan və Türkiyənin deyil, eyni zamanda, Orta Asiya ölkələrinin də İran və Rusiyadan asılılığını aradan qaldırmaqla, Orta Asiya ölkələri və Çinin Avropa ilə dəmiryolu əlaqəsini Rusiya və İrandan asılı olmadan reallaşdırmasına imkan verir. Hazırda Razi-Sarakhs və Trans-Sibir dəmiryolu xətlərinə alternativ hesab olunan bu dəmiryol xətti Azərbaycandan keçən Şimal-Cənub Nəqliyyat Dəhlizi vasitəsilə bir-birinə bağlanacaq Rusiya-İran dəmiryolu şəbəkələrinin gələcəkdə Bakı-Tbilisi-Qars Dəmiryolu Xəttinə inteqrasiyası üçün də geniş perspektivlər deməkdir. Bakı-Tbilisi-Qars, Ermənistanın geosiyasi və geoiqtisadi əhəmiyyətini nəzərəçarpacaq dərəcədə azaltmaqla yanaşı, eyni zamanda, onun Cənubi Qafqazda daha da marginallaşması nöqteyi-nəzərdən daha böyük əhəmiyyət kəsb edir. Dəmir İpək Yolu Ermənistanın təcridini dərinləşdirməklə yanaşı, eyni zamanda, bu bədnam ölkənin təcrid etməyə çalışdığı Naxçıvanı, artıq çəkilişi gündəmdə olan Qars-İqdır-Naxçıvan Dəmiryolu Xətti vasitəsilə Azərbaycanın digər əraziləri və Avropa ilə fasiləsiz dəmiryolu əlaqəsi ilə təmin etməkdə də əvəzsizdir.

## Mübariz Əhmədoğlu: "Bakı-Tbilisi-Qars Dəmir Yolunun istifadəyə verilməsi kifayət qədər ciddi fəlsəfi tutumu olan geosiyasi və geoiqtisadi layihədir"

Layihənin siyasi-iqtisadi əhəmiyyətinin yüksək olduğunu bildirən politoloq Mübariz Əhmədoğlu "Səs" qəzetinə açıqlamasında Bakı-Tbilisi-Qars Dəmir Yolunun istifasəyə verilməsinin kifayət qədər ciddi fəlsəfi tutumu olan geosiyasi və geoiqtisadi layihə olduğunu bildirdi: "Bu ölkə Prezident İlham Əliyevin ilk reallaşdırdığı beynəlxalq layihə idi. O vaxta qədər Ümummilli Liderimiz Heydər Əliyev bir neçə layihə reallaşdırmışdı. Prezident İlham Əliyev, belə demək mümkünsə, Bakı-Tbilisi-Qarsla Azərbaycanın beynəlxalq həyatdakı rolunu elə rahat transformasiya etdi ki, biz Ulu Öndər Heydər Əliyevin fiziki yoxluğunu hiss etmədik. Yəni çox rahat transformasiyası oldu. Ona görə bu, Prezident İlham Əliyevin ilk layihəsi olaraq çox böyük əhəmiyyətə malikdir. Bu da faktdır ki, Prezident İlham Əliyevin ilk layihəsi olduğuna görə, bu layihəyə manelər də çox oldu. Yəni əvvəlki layihələrə ancaq ermənilər və erməni lobbiləri maneçilik törədirdi, bu layihə ilə bağlı müttəfiq hesab etdiyimiz dövlətlər də, deyək ki, müxtəlif süründürməçiliklərə və yubatmalara yol verdilər. Siz gördünüz ki, Bakı-Tbilisi-Qars təxminən 7-8 il müddətinə istifadəyə verildi. Yəni bunların hamısı səbəbsiz deyildi. Prezident İlham Əliyevin dövründə onun ilk reallaşdırdığı layihəyə manelər çoxmənbəli və çoxşaxəli idi. Eləcə də, Cənab İlham Əliyevin gənc Prezident olmasını nəzərə alaraq, Onun əleyhdarları çox inamlı idilər ki, bu layihəni dayandıracaqlar. Amma görürsünüz ki, layihə reallaşdı".

Layihənin daha bir özəlliyi barədə fikirlərini bizimlə bölüşən politoloq bildirdi ki, Ümummilli Liderimiz Bakı-Tbilisi-Ceyhanı reallaşdırdı. Bakı-Tbilisi-Ceyhan Gürcüstanın içərisindən - o ermənilər yaşayan ərazilərdən keçməli idi: "Ümummilli Liderimiz gördü ki, ermənilərin müqaviməti çox böyük olacaq, danışıq apardı və Bakı-Tbilisi-Ceyhan layihədə nəzərdə tutulduğundan 50 km qərb istiqamətində yerini dəyişdi. Yəni ermənilərin kompakt yaşadıqları ərazidən Gürcüstanın içərilərinə doğru yerini dəyişdi. Bakı-Tbilisi-Qars da o ərazilərdən keçir, Axalkalakidən keçir, amma Prezident İlham Əliyev erməni faktoruna görə o layihənin - dəmir yolunun yerini dəyişmədi. Bakı-Tbilisi-Qarsın keçdiyi ərazilərdə Axalkalaki və Cavaxetiya erməniləri, təbii ki, Ermənistanın dəstəyi ilə ciddi surətdə maneçiliklər törətdilər. Mitinqlər və piketlər keçirdilər, beynəlxalq təşkilatlara müraciətlər yaydılar. Amma indi bu gün Cavaxetiya ermənilərinin qarşısında gözləmədikləri bir problem yaranıb. Problem də ondan ibarətdir ki, indi onlar deyirlər ki, azərbaycanlılar və türklər gəlib Cavaxetiya regionunda torpaqları alırlar, dükanbazarları alırlar, müəssisələri alırlar. Yəni artıq Bakı-Tbilisi-Qarsın hesabına Prezident İlham Əliyevin siyasi iradəsi hesabına Cavaxetiyada azərbaycanlı və türk faktoru yaranır. Yəni Cavaxetiya erməniləri sonda bu qaydada çətin vəziyyətə düşdülər. Ermənistan Cənubi Qafqazın küncünə sıxılaraq, çox böyük itgi ilə üzləşəcək. Bakı-Tbilisi-Qarsın ermənilərə əlavə təsiri də oldu. Yəni ermənilərin mövqeyini dəyişdi. Karen Karapetyan baş nazir olandan sonra bəyanat verdilər ki, Ermənistan Bakı-Tbilisi-Qarsa qoşula bilər. Amma onlar bilirlər ki, Bakı-Tbilisi-Qarsa qoşulmaq üçün hökmən Azərbaycanın icazəsi olmalıdır. Onlar təkliflərini geri götürməyiblər, amma irəlilətmirlər də. Qaldı ki, məsələnin iqtisadi tərəfinə, bu, geoiqtisadi layihədir. Təbii ki, həm də geoiqtisadi faktordur. Yəni iqtisadiyyatda da rolu var. Ən azından, hardan keçəcəksə, o ərazilərdə əhali üçün iş yerləri açılacaq. Amma yenə deyirəm, daha çox geosiyasi və geoiqtisadi baxımdandır. Dünyanın iki aktiv ürəyini birləşdirən dəmir yoludur. Avropa ilə Asiyanı birləşdirən dəmir yoludur və bu işi görən də Azərbaycandır, Azərbaycan hökumətidir".

Təbii ki, bu, regionda sonuncu belə irimiqyaslı layihə olmayacaq və Azərbaycanı qarşıda Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tam işə düşməsi, Avropanın enerji təhlükəsizliyini təmin edəcək TANAP və TAP boru kəmərlərinin açılışı və s. kimi mühüm layihələr gözləyir. Bu gün Azərbaycan Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən nəqliyyat qovşağı və logistika mərkəzidir.

***İnam HACIYEV***

# Ayk Qevorkiyan: "Ermənistan böyük yolların kəsişməsindəki hündür daşın üzərində oturan min yaşlı kor bayquşa çevrilir"

Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunun istismara verilməsi Ermənistanda, sözün həqiqi mənasında, vahimə yaradıb. AZƏRTAC xəbər verir ki, "armtimes.com" saytında dərc olunan məqalədə bu barədə ətraflı söhbət açılır. Müəllif Ayk Qevorkiyan yazır ki, hələ 10 il əvvəl BTQ-nin əsası qoyulanda Yerevanda İqtisad İnstitutunun tələbələri qarşısında çıxış edən Robert Köçəryan bəyan etmişdi ki, ictimaiyyətin Ermənistanın iqtisadi blokadaya düşməsi haqqındakı narahatlığı əsassızdır. Çünki BTQ-nin iqtisadi səmərəsi yoxdur və bu dəmir yolu tikilib başa çatdırılmayacaq. Lakin R.Köçəryanın fikri özünü doğrultmadı, BTQ-nin əsası qoyuldu və tikinti işləri başladı. Bir müddət sonra Yerevan Dövlət Universitetində çıxış edən R.Köçəryan yenə də jurnalistlərin bu barədə sualına cavab vermək məcburiyyətində qaldı. Jurnalistlər R.Köçəryana belə bir sual verdilər: "Bəs siz deyirdiniz BTQ tikilməyəcək. Lakin layihənin əsası qoyulub və tikinti işləri başlayıb". R.Köçəryan cavab verdi ki, bəli, tikinti işləri başlayıb, amma Yerevanın Qərbdəki müttəfiqləri bu layihəni dəstəkləmir və tikintinin başa çatacağı sual altındadır. Doğrudan da həmin vaxt bir neçə ermənipərəst ABŞ konqresmeni erməni lobbisinin səyləri ilə bəyanatla çıxış edərək BTQ-nin tikintisinin səmərəsiz olduğunu bildirdilər və ABŞ hökumətini bu layihəni dəstəkləməməyə çağırdılar. O dövrdə rəsmi Yerevan düşünürdü ki, ABŞ konqresmenlərinin bəyanatı tikintinin qarşısını almaq üçün yetərlidir. Lakin zaman göstərdi ki, yetərli deyil. Sonra Ermənistan prezidenti Serj Sarkisyan da bu layihəyə mane olmağa çalışdı. S.Sarkisyan 2008-ci ildə İran-Ermənistan dəmir yolunun çəkilməsi ideyasını irəli sürdü və rəsmi Tehran ilə müzakirələr başladı. İqtisadi-texniki əsaslandırmadan sonra məlum oldu ki, S.Sarkisyanın da fikirləri sabun köpüyü kimi havadan asılı qaldı. Belə ki, Ermənistan prezidentinin təklifinə İran ciddi yanaşmadı və heç bir dövlət və beynəlxalq maliyyə təşkilatı İran-Ermənistan dəmir yolunun çəkilişinə sərmayə qoymaq istəmədi.



Azərbaycan, Gürcüstan və Türkiyə öz səyləri ilə BTQ-ni tikib başa çatdırdılar. Qlobal xarakter daşıyan BTQ istismara verildi. ABŞ və Avropa İttifaqı BTQ-nin istismara verilməsini alqışladılar.

Bəs Ermənistan hansı səbəbə BTQ-nin həyata keçməsinə mane olmağa çalışırdı? Məsələnin mahiyyəti ondan ibarətdir ki, Tbilisi-Gümrü-Qars (TGQ) dəmir yolu xətti mövcuddur. Ermənistan bu xətti işə salmaqla blokadadan çıxmaq istəyirdi. Lakin rəsmi Yerevanın işğalçılıq siyasəti və qonşu dövlətlərə qarşı heç bir əsası olmadan ərazi iddiaları irəli sürməsi TGQ-nin fəaliyyətini heçə endirib. Bu yol artıq 25 ildir ki, dayanıb. Digər tərəfdən, Ermənistanın Rusiya ilə birbaşa sərhədi yoxdur. Gürcüstan vasitəsilə Rusiya ilə çıxış əldə etmək istəyirdi ki, bu da alınmadı. Gürcüstan Abxaziya bölgəsindən yolun çəkilməsinə icazə verməz. Çünki Abxaziyadakı separatçılar Gürcüstanın ərazi bütövlüyünü pozub. Beləliklə, xaricə nəqliyyat çıxışı axtaran Ermənistan dəyəri 1,5 milyard dollar olan İran-Ermənistan avtomobil yolunu çəkməyə başladı ki, bu da həm səmərəli deyil, həm də nə vaxt başa çatacağı bilinmir. İqtisadi böhran yaşayan Ermənistan maliyyə çətinliyi ucbatından tikinti işlərini dayandırıb. İran isə əsas prioriteti İran-Ermənistan avtomobil yoluna yox, Rəşt-Astara dəmir yoluna yönəldib.

Göründüyü kimi, Azərbaycan Prezidentinin strateji təşəbbüsünün reallığa çevrilməsi Ermənistanı, necə deyərlər, peşman edib. Prezident İlham Əliyevin hələ on il əvvəl planlaşdırdığı layihə bu gün həyata keçdi və bu, yalnız regional xarakterli iqtisadi layihə deyil. BTQ, eyni zamanda, Azərbaycanın uzunmüddətli siyasi zəmanətidir. Ermənistanın isə regionda həyata keçirilən bütün beynəlxalq layihələrdən kənarda qalması onun müstəqil siyasət apardığını göstərir. Ermənistan özündə iradə tapıb havadarlarının deyil, öz milli maraqlarının qoruyucusu olsa bəlkə onda işğalçılığın və torpaq iddialarının erməni xalqına necə böyük zərbə vurduğunu anlayar.

A.Qevorkiyan məqaləsini yekunlaşdıraraq yazır ki, Ermənistan böyük yolların kəsişməsindəki hündür daşın üzərində oturan min yaşlı kor bayquşa çevrilir.

# "Nar bağı" beynəlxalq festivallarda

Azərbaycanlı rejissor İlqar Nəcəfin "Nar bağı" filmi beynəlxalq kinofestivallarda uğurla nümayiş olunur. Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasından SİA-ya bildirilib ki, film dekabrın 8-dən 15-dək 22-ci "Kerala" Beynəlxalq Film Festivalında mübarizəyə qatılacaq. Qeyd edək ki, "Nar bağı" bədii filmini Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası və "Buta Film" kino şirkəti birgə istehsal edib. Filmin ssenari müəllifləri Asif Rüstəmov, İlqar Nəcəf, Roelof Jan Minneboo, quruluşçu rejissoru İlqar Nəcəf, quruluşçu operatoru Ayhan Salar, quruluşçu rəssamı Rafiq Nəsirov, bəstəkarı Firudin Allahverdi, icraçı prodüseri Akif Əliyev, prodüserləri Müşfiq Hətəmov və İlqar Nəcəfdir.



# Meksika Deputatlar Palatası: BMT Təhlükəsizlik Şurasının Azərbaycanın ərazi bütövlüyü ilə bağlı qətnamələrini dəstəkləyirik

***Meksika Deputatlar Palatasının sədri Xorxe Karlos Ramires Marin Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarında müvəqqəti işlər vəkili Məmməd Talıbovla görüş zamanı Meksikanın Azərbaycan ilə dostluq və əməkdaşlıq əlaqələrinin daha da möhkəmlənməsində maraqlı olduğunu vurğulayıb.***

AZƏRTAC xəbər verir ki, görüşdə Xorxe Karlos Ramires Marin bir neçə gün əvvəl müxalif "MORENA" və "PRD" siyasi partiyalarını təmsil edən üç meksikalı deputatın Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərinə qanunsuz səfərlərinə toxunub, bu faktdan hədsiz dərəcədə təəssüfləndiyini qeyd edib. O, həmin millət vəkillərinin hərəkətinin nə Meksika Deputatlar Palatasının, nə də həmin deputatların təmsil etdikləri siyasi partiyaların Konqresdəki qrupunun mövqeyini deyil, yalnız və yalnız öz individual mövqeyini əks etdirə bildiyini vurğulayıb. O, görüşdə iştirak edən Konqresin Xarici Əlaqələr Komissiyası sədrindən məsələnin araşdırılması və bu kimi halların gələcəkdə baş verməməsi məqsədilə müvafiq tədbirlərin görülməsini xahiş edib.



Azərbaycan diplomatı öz növbəsində həmsöhbətinə münaqişə və Ermənistanın ölkəmizə qarşı təcavüzü barədə dolğun məlumat verib, rəsmi Yerevanın növbəti təxribatı olan sözügedən hadisənin Ermənistan hökumətinin qeyri-konstruktiv xarakterini bir daha ifşa etmiş olduğunu bildirib.

Ramirez Marin Meksikanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyinin dəyişilməz qaldığını qeyd edib, Deputatlar Palatasının münaqişə üzrə BMT Təhlükəsizlik Şurasının Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsini tələb edən dörd qətnaməsini dəstəklədiyini vurğulayıb.

Görüş və Meksika Deputatlar Palatasının qeyd olunan mövqeyi barədə məlumat həm Konqresin, həm də onun sədri Ramirez Marinin sosial şəbəkələrdəki rəsmi səhifələrində yayılıb.

Qeyd edək ki, Xarici İşlər Nazirliyinin tapşırığına uyğun olaraq ölkəmizin Meksikadakı səfirliyi məsələni araşdırdıqdan sonra dərhal Meksika Xarici İşlər Nazirliyinə diplomatik nota, Deputatlar Palatasının sədrinə və Azərbaycan-Meksika dostluq qrupunun sədrinə isə məktublarla müraciət edərək Meksika millət vəkillərinin Azərbaycan Respublikasının işğal olunmuş ərazilərinə qeyri-qanuni səfərləri ilə bağlı Azərbaycan Respublikasının ciddi narahatlığını çatdırıb, bu kimi səfərlərin təxribat xarakterli və qəbuledilməz olduğunu bildirib, həmin məsələnin araşdırılması və gələcəkdə təkrarlanmaması üçün müvafiq tədbirlərin görülməsini tələb edib.

Onu da xatırladaq ki, Meksika Deputatlar Palatası tərəfindən 2011-ci il 6 sentyabr tarixində qəbul olunmuş qətnamə Ermənistanı BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi üzrə dörd qətnaməsini yerinə yetirməyə çağırır.

**SİYASİ RAKURS**

# "Milli Şura" və "REAL" hərəkatı arasında kəskin qarşıdurma genişlənir

***Dağıdıcı müxalifət düşərgəsində özlərindən başqa heç bir siyasi partiyanı və hərəkatı "REAL" müxalifət hesab etmədiklərini bəyan edən "Milli Şura" rəhbərliyi bu dəfə "REAL" hərəkatını hədəfə alıb. Qarşıdurmanın kökündə dayanan əsas səbəb düşərgədaxili monopoliyanı ələ almaqdan və müxalif baxışlı insanları öz ətrafına toplamaq marağından irəli gəlir.***

REAL



Daha dəqiq desək, "Milli Şura"nın qeyri-rəsmi rəhbəri olan AXCP sədri Ə.Kərimli Müsavat partiyası ilə savaşdan qalib çıxdığını düşünərək, indi də partiyasına və "Milli Şura"ya meydan oxuya biləcək digər siyasi qurum - "REAL" hərəkatını çıxdaş etməyə çalışır. Başladılan savaşa daha bir səbəb isə "Milli Şura"nın bir neçə icazəli mitinq keçirməsinə rəğmən, "REAL" hərəkatının qurultay keçirə bilməmələridir. Məhz bununla bağlı "Milli Şura" və "REAL" tərəfdarları sosial şəbəkələrdə bir-birilərinin ünvanına ən müxtəlif iddialar və ittihamlar səsləndirməklə yanaşı, hakimiyyətlə iş birliyi qurmaqda da günahlandırıcı fikirlər səsləndirməkdədirlər.

**"REAL"-ın icraçı katibi Natiq Cəfərli: "REAL" hərəkatının ciddi rəqibə çevrilməsi ənənəvi müxalifətə sərf etmir"**

Başqa tərəfdən, "real"çılar" AXCP və "Milli Şura" rəhbərliyini qıcıqlandırmaq dan ötrü, həm də belə bir iddia ilə çıxış edirlər ki, guya hakimiyyət "REAL"-dan "çəkindiyinə" görə, onun hər hansı bir tədbir keçirməsinə icazə vermir, lakin "Milli Şura"nın addımlarını, ümumiyyətlə, ciddiyə almır. Əlbəttə, bu kimi fikirlərin səslənməsi heç də həqiqəti əks etdirmir. Çünki istər "Milli Şura" olsun, istər "REAL" hərəkatı, istərsə də digər müxalifət qurumları - onların heç bir ciddi ictimai dəstək almadıqlarını, xalq dəstəyindən məhrum olmalarını, eləcə də, "liderlərin" özlərini xalqdan təcrid edərək, şəxsi dividend güdmələrini nəzərə alarsaq, belə bir müxalifətin, ümumiyyətlə, hakimiyyət tərəfindən ciddiyə alınması mümkün deyil. Ona görə də, "REAL" rəhbərliyinin, xüsusilə, hərəkatın səlahiyyətlisi, qurumun icraçı katibi Natiq Cəfərlinin bu cür iddia ortaya atması, qeyri-ciddi olaraq qəbul edilməlidir.

Qaldı ki, "Milli Şura" ilə qarşıdurmaların start verilməsinə, söz yox ki, burada düşərgədaxili çevrəni böyütmək və orada əsas gücə çevrilmək maraqlarının görünməsi şübhəsizdir. Əbəs deyil ki, N.Cəfərli "REAL" hərəkatının həbsdə olan sədri İlqar Məmmədovun mövcud vəziyyətdə Ə.Kərimlidən, C.Həsənlidən daha rentabelli siyasətçi olduğunu bildirib. Bu səbəbdən, "rəhbəri 4 il yarımdan çox həbsdə olan bir təşkilatın siyasi arenada çox ciddi rəqibə çevrilməsi ənənəvi müxalifətə sərf etmir" kimi ifadəni gündəmə gətirib.

Bəzi müxalifətyönlü media qurumları və sosial şəbəkədəki müxalif qruplar iddia edirlər ki, guya hakimiyyət "Milli Şura" ilə "REAL" hərəkatı arasında qarşıdurma yaradır. Lakin N.Cəfərli bu iddiaya inanmadıqlarını deyərək, əksinə, "Milli Şura" rəhbərliyinin "REAL"-a qarşı kampaniya başlatdığını bildirib. SİTAT: "Belə ehtimallar tez-tez səsləndirilir, həm sosial şəbəkələrdə, həm də ictimaiyyət arasındakı müzakirələrdə...Amma "Milli Şura" və "REAL" arasında ciddi əməkdaşlıq yoxdur ki, aramızı vurmaq üçün müəyyən addımlar atılsın. Biz ilk gündən "Milli Şura"ya getmədik. Getməmə səbəblərimizi də açıqladıq. Sonralar haqlı olduğumuz da önə çıxdı. "Milli Şura"nın zəifləməsi, bəzi siyasi qüvvələrin oranı tərk etmələri nə qədər haqlı olduğumuzu sübut etdi. "Milli Şura" şəxslər üzərində qurulan bir təşkilat idi, ciddi ideoloji bazası da yox idi. Bu baxımdan, düşünmürəm ki, bizim münasibətlərimizin korlanması üçün müəyyən addımlar atılsın. Münasibətlər neytraldır...Amma bu günə qədər heç bir əməkdaşlığımız olmayıb, çox güman ki, bundan sonra da olmayacaq".

Beləliklə, fakt ortadadır və N.Cəfərli istər dolayı, istərsə də, bilavasitə belə bir iddia ortaya qoyub ki, təmsil olunduğu hərəkat, ümumiyyətlə, "Milli Şura"nı qeyri-ciddi və lüzumsuz bir təşkilat hesab edir. Ona görə də, müxalifətdəki meydanın "REAL" hərəkatına verilməsi gərəkliyini önə sürür. Əlbəttə, düşərgədaxili monopoliyanın ələ alınması cəhdi kimi qəbul edilən belə bir iddia qurumlar arasında başlanması an məsələsinə çevrilmiş savaşın barışmaz və şiddətli olacağı ehtimalını kifayət qədər artırır.

**Rövşən NURƏDDİNOĞLU**

## Bakı Şopinq Festivalı ölkəmizin turizm bazarına təsirsiz ötməyəcək

XXI yüzillikdə dünyanın istənilən ölkəsi ilə iqtisadi-siyasi və mədəni əlaqələrini genişləndirən Azərbaycan öz nufuzu, əldə etdiyi nailliyyətiləri ilə seçilir. Qeyri-neft sektorunun inkişaf etdirilməsi və iqtisadiyyatın şaxələndirilməsi istiqamətində əsaslı uğurlara imza atılıb. Real mənzərənin müəllifi olan Azərbaycan müasir dünyamızda turistlər üçün cəlbedici məkana çevrilib. Əbəs deyil ki, bütün qitələrdən olan turistlər ölkəmizə səfər edir, buranın təbii zənginliyi, zahir görkəmi, tarixi, mədəniyyəti, adət-ənənələri, eləcə də, multikultural və tolerant ölkə ilə bağlı böyük təəssüratlar əldə edirlər. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan Şərqlə Qərb arasında təkcə coğrafi deyil, həm də mədəni körpüdür.

Baku SHOPPING FESTIVAL

Malik olduğu uğurlu özəlliklərlə yanaşı, Azərbaycan turizm sektorunu inkişaf etdirmək, ölkə iqtisadiyyatında bu sahənin payını artırmaq məqsədilə bir sıra həvəsləndirici festivallar və tədbirlər həyata keçirir. Bakı artıq "Formula-1", İslam Həmrəyliyi Oyunları, Birinci Avropa Oyunları və digər tədbirlərdən daha çox tanınıb. Bu gün isə ölkəmizdə Bakı Şopinq Festivalı keçirilir. Bakı Şopinq Festivalı ölkə iqtisadiyyatını inkişaf etdirmək və çoxlu sayda turisti cəlb etmək üçün həyata keçirdiyi müxtəlif tədbirlər sırasında keyfiyyətcə yeni təşəbbüsüdür. Festivalın Bakıda keçirilməsi həm də turistləri cəlb edən tarixi şəhərlə tanışlıq imkanı yaradır. Birinci festival zamanı - aprel ayı ərzində ölkəmizə 187 min 577, mayın ilk on günündə isə 70 min 776 turist səfər etmiş oldu. Heç şübhəsiz ki, növbəti festivalda paytaxtımıza səfər edərək turistlərin sayında daha çox artım olacaq və bu da ölkəmizin turizm bazarına təsirsiz ötməyəcəkdir.

Bir ildə artıq ikinci dəfə keçirilən Bakı Şopinq Festivalı oktyabrın 15-dən paytaxtımızda start götürüb. II Bakı Şopinq Festivalına 500-dən artıq ticarət obyekti qoşulub. Bu mağazalar və xidmət mərkəzlərinin əksəriyyətinin ƏDV qaytarılması sisteminə qoşulması turistlər və yerli alıcılar üçün böyük fürsətlər yaradır.

İkinci Bakı Şopinq Festivalı alış-verişin ünvanına çevrilib. Bu, Şopinq həvəskarlarını, ailələri Bakıya gəlməyə və təqdim olunan endirimlərdən, sərfəli qiymətlərdən yararlanmağa çağırır. Endirimlər dünya şöhrətli brendlərdən tutmuş, dəbdəbəli hotellərə, ləziz Azərbaycan yeməklərini də təklif edən restoranlara qədər, hər şeyə şamil edilir.

Bakı Şopinq Festivalı bundan sonra əcnəbi turistləri cəlb edən Azərbaycan paytaxtının vizit kartlarından biri olacaq. Paytaxtımızı tanıtmaq məqsədinə çevrilən Şopinq Festivalı bu dəfə də xarici turistlərə və yerli sakinlərə bir ay ərzində sərfəli ticarət imkanları yaratmaqla yanaşı, geniş mədəni proqram, tarixi məkanlara ziyarət və rəngarəng əyləncələrlə dolu istirahət vəd edir. Bu günlərdə Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə nəşr olunan "Baku Guide" bələdçi kataloqunun növbəti (oktyabr-noyabr) buraxılışında paytaxt teatrlarının repertuarı, konsert müəssisələrinin proqramları, kino zallarında nümayiş olunacaq filmlərin afişası, muzeylərdə, sərgi salonlarında şəhər sakinlərini və qonaqları gözləyən maraqlı tədbirlər və s. ilə bağlı geniş informasiya verilib. Nəşrdə, həmçinin, paytaxtımızda keçirilən növbəti musiqi bayramı - ənənəvi Bakı Beynəlxalq Caz Festivalı barədə ətraflı məlumat almaq mümkündür. "Bakını kəşf et", "Üçgünlük Bakı gəzintisi", eləcə də şəhərin arxitektura inciləri, turistlər üçün ağız dadı - zəngin mətbəx menyusu və s. mövzulu yazılar oxucular üçün maraqlı olacaq.

**ZÜMRÜD**

# XX əsrin ikinci yarısından sonunadək Azərbaycan mədəniyyəti: təhsilin problemləri və uğurları

***Sovet dövləi postsovet məkanında, o cümlədən, Azərbaycanda siyasi nəzarəti gücləndirmək üçün özünün xüsusi təsir vasitələri sistemini yaradır və inkişaf etdirirdi. Əsas məqsəd Sovet adamlarına, həmçinin, azərbaycanlılara da:***

* Sosializm cəmiyyətinin ən ədalətli, humanist və demokratik cəmiyyət olduğunu;

* Kommunist partiyasına, partiya və dövlət rəhbərlərinə, Sovet elitasına sitayiş etməyi;

* Sovet yaşayış tərzini;

* Kommunist əmək vərdişlərini;

* Çoxsahəli Sovet təhsilinə;

* Cəmiyyəti və dövləti iqtisadi cəhətdən inkişaf etdirmək üçün sosialistcəsinə məhsuldar işləməyi aşılayırdı.

Totalitar kommunist ideologiyası ictimai şüurun bütün sahələrini, elm, əxlaq, din, hüquq, ədəbiyyat, incəsənət və mədəniyyət üzərində ciddi nəzarət edirdi.

Azərbaycanda təhsil sahəsində sosialist məzmunu kəsb etsə də, ancaq uğurlar da əldə edildi.

* Artıq savadsızlıq ləğv edilmişdi;

* Ölkədə kütləvi savadlanma ibtidai, orta və ali təhsil pillələri uğurla inkişaf edirdi.

Akademik Əfrand Daşdəmirov yazırdı: "Əhalinin kütləvi savadlanması ilə ən ümumi orta təhsil əldə edildi, Azərbaycan dilində etnomədəni informasiya, etnotarixi biliklərin toplanması və yayılması təmin olundu".

Tarixçi Tahir Qaffarov ötən əsrin 40-cı illərdə Sovet təhsilinin Azərbaycanda güddüyü məqsədin əsl mahiyyətini açıb göstərərək yazır: "Məktəb məhsuldar işləmək üçün vacib bilik və bacarıqlara, müəyyən əmək vərdişlərinə malik, mövcud rejimə sadiq icraçı işçilər, kadrlar hazırlanmasında mühüm pillə idi. İşçilərin ümumtexniki təhsil səviyyəsinə tələblər istehsal və texnologiya mürəkkəbləşdikcə daha da artırdı. Hələ müharibə illərində yaranmış axşam növbəli məktəblərin şəbəkəsi xeyli genişlənmişdi. 1945-ci ildə məktəblərdə buraxılış və kamal attestatları imtahanları müəyyən olunmuş, ən yaxşı oxuyan şagirdlər üçün qızıl və gümüş medallar təsis edilmişdi. 1949-cu ildən ümumi yeddillik təhsil elan olunmuşdu, SSRİ Ali Sovetinin 1958-ci ildə qəbul etdiyi "Məktəbin həyatla əlaqəsini möhkəmləndirmək və ölkədə xalq maarifi sistemini daha da inkişaf etdirmək haqqında" qanuna əsasən, 1959-cu ildən səkkizillik ümumtəhsil məktəbləri müəyyən olundu. Yuxarı siniflərdə əmək təliminə və şagirdlərə müxtəlif ixtisaslar öyrədilməsinə geniş yer verildi. Lakin tədbirlər müvafiq baza, müasir müəssisələr, kadr çatışmadığından, gözlənilən qədər səmərəli olmadı.

Bu illərdə təhsilin ruslaşdırılması istiqamətində ciddi addımlar atıldı. Dövlət idarələrində işlərin rus dilində aparılması, bu dili mükəmməl bilməyənlərin vəzifə nərdivanı ilə yüksəlmək imkanının olmaması adamlarda təhsili rus dilində almağa meyili artırmışdı. Rus məktəblərinin sayı, xüsusən, şəhərlərdə, xeyli artmışdı. Bu məktəblərdə Azərbaycan dilinə az saat ayrılır, çox yerdə onun tədrisi formal xarakter daşıyırdı. Onlarda tədris elə təşkil olunurdu ki, gənc nəsil milli dəyərlərə yadlaşsın. Azərbaycan məktəblərində rus dilinin tədrisinə ayrılan saatlar xeyli artırılmışdı. 1958-59-cu dərs ilində məktəblərdə "Azərbaycan tarixi" (orta məktəblərdə "SSRİ tarixi" tərkibində) tədrisinə cəmi 40 saat vaxt ayrıldı. Bu xalqın öz tarixini dərindən öyrənməyə imkan vermirdi.

Orta təhsil 1966-cı ildən ümumtəhsil həddi elan olunmuşdu. Yuxarı siniflərdə istehsalat təlimi dayandırıldı. Texniki-peşə məktəbləri şəbəkəsi genişləndirildi. Əməyə özgələşmənin başlıca səbəbini mövcud istehsal üsulunda deyil, təlim-tərbiyədən qüsurlarda görən dövlət 1984-cü ilin aprelində "Ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətləri" haqqında qanun qəbul edərək, hamılıqla orta təhsili peşə təhsili ilə tamamlamaq, bu işdə məktəbin rolunu fəallaşdırmaq üçün yeni cəhdlər göstərdi. Lakin iqtisadi tənəzzül bu sahəyə kifayət qədər vəsait ayırmağa, maddi bazanı inkişaf etdirməyə imkan vermirdi.

Respublikada ali təhsil də xeyli inkişaf etmişdi. 1945-ci ildə Teatr İnstitutu (1968-ci ildən İncəsənət İnstitutu, 1991-ci ildən İncəsənət Universiteti), 1946-cı ildə ikiillik Rus dili Müəllimləri İnstitutu təşkil olunmuşdu. 1948-ci ildə Pedaqoji Xarici Dillər İnstitutu (1941-ci ildə ilk dəfə təşkil olunub və həmin ildə bağlanmışdı), 1996-cı ildən Azərbaycan Dövlət Dillər İnstitutu adlanır. 1950-ci ildə Politexnik İnstitutu (1991-ci ildən Texniki Universitet), 1951-ci ildə hələ 1941-ci ildə fəaliyyətini dayandırmış Xalq Təsərrüfatı İnstitutu (1991-ci ildən İqtisad İnstitutu) yenidən açıldı. 1952-ci ildə ikiillik Rus Dili Müəllimləri İnstitutu əsasında Rus Dili və Ədəbiyyatı İnstitutu təşkil edildi. 1959-cu ildə bu institut Pedaqoji Xarici Dillər İnstitutu ilə birləşdirildi. 1971-ci ildə hər iki institut yenidən müstəqil fəaliyyət göstərməyə başladı. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filialları əsasında 1972-ci ildə Naxçıvan, 1973-cü ildə Xankəndi Pedaqoji institutları, 1976-cı ildə İnşaat Mühəndisləri İnstitutu, 1981-ci ildə Gəncə Texnologiya İnstitutu təşkil olundu. 1969-cu ildən ali məktəblərin yanında fəhlə, kolxozçu və ordudan təxis olunanlar üçün hazırlıq şöbələri yaradıldı. Ali məktəblərdə avtomatik-idarəetmə sistemi, elektrotexnika, biokimya, rabitə texnikası kimi istehsalın və elmi-texniki tərəqqinin tələb etdiyi yeni sahələr üzrə mütəxəssislər hazırlanmasına başlanmışdı.

Məktəblərdə tədrisin məzmunu mövcud rejimin məqsədlərinə müvafiq şəkildə müəyyən olunmuşdu. Bütün tələbələrə ictimai elmlər tədris edilirdi. Orta məktəblərdə 1963/64-cü tədris ilindən "İctimaiyyət", 1975/76-cı dərs ilindən "Sovet dövlətinin və hüququnun əsasları" tədris olunmağa başlanmışdı. Ali məktəblərdə "Elmi kommunizm", "Sov.İKP tarixi", marksist fəlsəfə və siyasi iqtisadın tədrisinə diqqət artırılmışdı.

Məktəblərdə Sovet cəmiyyəti antoqonist ziddiyyətsiz, qüsurlardan xali bir ictimai quruluş kimi təqdim və təqdir edilirdi. "Azərbaycan tarixi"nə barmaqarası baxılır, bu fənn ciddi şəkildə saxtalaşdırılmış dərsliklər və proqramlar üzrə tədris olunurdu. Əvvəllər olduğu kimi, yenə də "SSRİ tarixi", əsasən, Rusiyanın tarixi kimi təqdim edilirdi".

Lakin bu dövrdə real həyatla bilik arasında uyğunsuzluq yarandı. Ali məktəblərə qəbul sahəsində rüşvətxorluq baş alıb gedirdi. İstedadlı adamların qəbul olunması sahəsində əngəllər var idi. Bütün bunlara baxmayaraq, təhsil uğurla inkişaf edirdi.

T.Qaffarov yazır: "Azərbaycanda geniş, çoxşaxəli, çoxpilləli təhsil şəbəkəsi mövcud idi. Onun mühüm nailiyyətləri vardı. 1990-cı ildə respublikada artıq 4534 ümumtəhsil məktəbi, 182 texniki-peşə məktəbi vardı. Bütün texniki-peşə məktəblərində 1984-cü ildən peşə ilə yanaşı, orta təhsil də verilirdi. Ümumtəhsil məktəblərində 1 milyon 409 min, texniki-peşə məktəblərində isə 96 min şagird təhsil alırdı. Müxtəlif bilik sahələri üzrə təmayüllü internat məktəbləri fəaliyyət göstərirdi. Azərbaycanda milli hərbi kadrlar yetişdirilməsini və SSRİ ali hərbi məktəblərinə azərbaycanlı gənclərin daxil olmasını təmin etmək məqsədi ilə 1971-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə C.Naxçıvanski adına Orta Respublika İxtisaslaşdırılmış İnternat Məktəbi (1991-1997-ci illərdə Bakı ibtidai hərbi məktəbi adlanıb) təşkil olunmuşdu, Hökumət 1976, 1978, 1981-ci illərdə onun fəaliyyətini yaxşılaşdırmaq, maddi bazasını möhkəmləndirmək üçün xüsusi qərarlar qəbul edib həyata keçirmişdi.

Xalq təsərrüfatının müxtəlif sahələri üçün orta ixtisaslı kadrlar hazırlayan məktəblərin sayı 1990-cı ildə 77-yə çatmışdı. Onlarda 60 min nəfər tələbə təhsil alırdı. 90-cı illərin əvvəllərində Azərbaycan SSR-də artıq 17 ali məktəb vardı. Bu məktəblərdə 105 min tələbə oxuyurdu. Bakı Universitetində 12 min tələbə təhsil alır, onlara 1200 professor və müəllim dərs deyirdi.

Azərbaycan üçün SSRİ-nin mərkəzi ali məktəblərində də kadlar hazırlanırdı. 1950-ci ildə Moskva və Leninqradda 750 azərbaycanlı tələbə və 100-dən çox aspirant təhsil alırdı. Sonralar bu göstəricilər xeyli azalmışdı. Hər il cəmi 40-50 nəfər (özü də çoxu başqa millətlərdən) gənc SSRİ-nin qabaqcıl ali məktəblərinə qəbul edilirdi. Bu iş Heydər Əliyevin rəhbərliyi illərində daha da genişləndi. 70-80-cı illərdə SSRİ-nin 50-dən çox şəhərində 135 mülkü, 105 hərbi ali məktəbdə respublika üçün 17 mindən çox mütəxəssis kadr hazırlanmışdı. Respublikanın ali məktəbləri minlərlə ixtisaslı kadr hazırlamış, elmin müxtəlif sahələrinin inkişafına əhəmiyyətli təsir göstərmişdilər.

Bütün təzyiqlərə baxmayaraq, Bakı Universiteti, xüsusən, Azərbaycan dilinin, xalqın tarix və mədəniyyətinin qorunub- saxlanılmasında, inkişaf etdirilməsində, gənclərdə milli köklərə bağlılığın möhkəmlənməsində, azadlıq ideyalarının boy atıb yayılmasında çox mühüm rol oynamışdı.

Ötən əsrin 80-ci illərin axırlarında respublikada yaşı 15 və ondan yuxarı olan əhalinin hər min nəfərindən 773-ü orta, 105-i isə ali təhsilli idi.

Sovet cəmiyyəti, sosialist sistemi, Kommunist Partiyasının, onun liderlərinin "rəhbər və istiqamətverici rolu" haqqında uydurma ehkamları "elmi dünyagörüşü" adı ilə beyinlərə yeritməyin mühüm vasitələrindən biri də məktəbdənkənar təhsil idi. Müharibədən sonra bu sahəyə rəhbərlik üçün Azərbaycan SSR Nazirlər Soveti yanında Mədəni-Maarif Müəssisələri İşi üzrə Komitə, 1947-ci ildə isə Siyasi və Elmi Bilikləri yayan Cəmiyyət təsis olunmuşdu. Partiya, komsomol siyasi-maarifi xeyli genişlənmişdi. Partiya kadrları hazırlanmaq üçün 1946-cı ildə Azərbaycan KP MK-nın ikiillik partiya məktəbi açılmışdı. Hər il orta hesabla partiya təhsili sisteminə 60-cı illərdə 150 min, 80-ci illərdə 290 min, komsomol təhsili sisteminə isə müvafiq surətdə 140 min və 310 min nəfərdən çox adam cəlb olunurdu. 60-cı illərdən şəhər və kənd rayonlarında Xalq Universitetləri fəaliyyət göstərirdi. 80-ci illərin axırlarında onların sayı 550-yə çatmışdı".

**Vahid ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 1 noyabr


## Almaniya alimləri yeni simsiz rabitə texnologiyası hazırlayıblar



Almaniya alimləri optik-lif birləşmələrində kabellərdən istifadə zamanı sürətin məhdudlaşdırılması ilə bağlı yaranan əsas problemin həllini taparaq yeni simsiz rabitə metodu hazırlayıblar.

AZƏRTAC "VistaNews" resursuna istinadən xəbər verir ki, alimlər simli bağlantıdan imtina edərək ötürülən məlumat axınının artması, hava müqavimətinin isə sürətə təsir edə bilməməsi üçün fotonları toxunmaya bənzər şəklə salıblar.

Texnologiya işıq hissəciklərinə lazımi impuls verən xüsusi holoqramdan istifadə edir. Bu səbəbdən hissəciklər uzun məsafələri maneəsiz qət edə bilirlər. Alimlər yeni texnologiyanın sınaqlarını da keçiriblər. Bu kəşf sayəsində ekspertlər məlumatları 1609 metr (1 mil) məsafəyə ötürməyə nail olublar. Mütəxəssislərin sözlərinə görə, texnologiyanın praktik tətbiqi üçün hələ görüləsi çox iş var. Məsələn, rabitənin güclü yağış və ya qarlı hava şəraitində necə işləyəcəyi sual doğurur.

## Dünyadan köçmüş ən zəngin məşhurların siyahısı açıqlanıb



Pop musiqisinin kralı Maykl Cekson ən zəngin dünyasını dəyişmiş məşhurların siyahısına başçılıq edir. Müğənni artıq ardıcıl beş ildir ki, bu siyahıda birinci yerdə qərarlaşıb.

AZƏRTAC Rusiya KİV-lərinə istinadla xəbər verir ki, siyahını Amerikanın "Forbes" jurnalı açıqlayıb.

Nəşrin məlumatına görə, pop ulduzun mirası il ərzində 75 milyon dollar gəlir gətirib. Siyahıda sonrakı yeri ötən il həyatdan köçən peşəkar qolfçu Arnold Palmer tutub. İdmançının gəliri 40 milyon dollardır. Üçüncü yer 2000-ci ildə dünyasını dəyişən amerikalı rəssam Çarlz Monro Şultsa məxsusdur. Onun gəlirləri 38 milyon dollar olub. Varlı mərhum ulduzlar dördlüyünü musiqiçi Elvis Presli qapayır. 1977-ci ildə həyatını itirən müğənninin mirası il ərzində 35 milyon dollar gəlir gətirib.

## Körpələrin ən azı 2 ay əmizdirilməsi onların ani ölüm riskini 50 faiz azaldır



Anaların öz körpələrini ən azı 2 ay boyunca əmizdirməsinin ani uşaq ölümü (SIDS) riskini təxminən əlli faiz azaltdığı bildirilib. AZƏRTAC xəbər verir ki, ABŞ-ın Virciniya Universitetinin elm adamlarının apardıqları araşdırma çərçivəsində 2 min 300-ə yaxın ani körpə ölümü hadisəsi və nəzarət qrupunda yer alan 7 minə yaxın körpənin üzərində aparılan 8 beynəlxalq tədqiqatın nəticəsi açıqlanıb. Araşdırma nəticəsində anaların öz körpələrini ən azı 2 ay əmizdirməsini SIDS riskini təqribən yarı-yarıya azaltdığı aşkarlanıb. Qeyd edək ki, ani körpə ölümləri ən çox 1 yaşadək uşaqlarda rast gəlinir.

## 2018-ci il Formula-1 Azərbaycan Qran-prisi üçün bilet satışına noyabrda start veriləcək



2018-ci ildə keçiriləcək Formula-1 Azərbaycan Qran-prisi üçün bilet satışına noyabrın 6-dan start veriləcək. "Bakı Şəhər Halqası" Əməliyyat Şirkətindən (BŞH) AZƏRTAC-a bildiriblər ki, satışa başlandıqdan sonra ilk iki ay ərzində biletlər endirimli qiymətlərlə təklif olunacaq.

BŞH-nin marketinq və kommunikasiya şöbəsinin rəhbəri Nigar Arpadarai yeni mövsümdə yerli tamaşaçılar üçün xüsusi endirimlərin olacağını bildirib: "Hər ötən il bir əvvəlki illə müqayisədə daha çox yerli azarkeşin bilet alaraq yarışın bütün sessiyalarında, həmçinin yarışdan kənarda onlar üçün hazırladığımız əyləncə proqramlarında, xüsusən də dünya ulduzlarının iştirakı ilə baş tutan möhtəşəm konsertlərdə böyük coşqu ilə iştirak etməsi bizi çox sevindirir. Biz növbəti il yarışa daha çox yerli tamaşaçı cəlb etmək üçün müxtəlif endirimlər təklif edəcəyik. Bununla bağlı ilk satış kampaniyamız noyabrın 6-da başlayacaq və həmin gün biz ölkə ictimaiyyətinə yarış həvəskarları üçün təklif olunan xüsusi endirimlərin detallarını açıqlayacağıq. İnanırıq ki, növbəti yarışda rekord göstəricidə tamaşaçı iştirakına nail olacağıq". Qeyd edək ki, 2018-ci il Formula-1 Azərbaycan Qran-prisini izləmək istəyən tamaşaçılara trekin müxtəlif yerlərindən yarışı izləməyə imkan verən və 30 min yerlik tutumu olan tribuna və ayaqüstü zonalar təklif edilir.



## İspaniya mətbuatı Azərbaycan çempionundan yazır

UEFA Çempionlar Liqası çərçivəsində oynanılacaq "Atletiko Madrid"-"Qarabağ" oyunu ərəfəsində İspaniyanın Vavel.com portalı Azərbaycan klubu haqqında analitik məqalə dərc edib.

AZƏRTAC xəbər verir ki, "Azərbaycanın qüruru olan "Qarabağ" Futbol Klubunun analizi" sərlövhəli məqalədə müəllif Pablo Mata Medina "Qarabağ" klubunun tarixi haqqında geniş məlumat verir, komandamızın son illərdəki uğurlarından yazır. "Qarabağ" klubuna "Azersun" şirkətinin maliyyə dəstəyini də qeyd edən müəllif klubumuzun heyətindəki əcnəbi oyunçular haqqında məlumat verir. İspaniyalı Miçel və Dani Kintana, albaniyalı Ansi Aqolli, norveçli Tarik Əl Yunusi kimi futbolçuların potensiallarının yüksək qiymətləndirildiyi məqalədə baş məşqçi Qurban Qurbanovun uğurlu məşqçiliyindən xüsusi söhbət açılır.

## Güləşçilərimiz Dağıstanda iki qızıl medal qazanıblar



Dağıstan Respublikasının Buynaksk rayonunda dövlət xadimi Xizri Şıxsaidovun mükafatı uğrunda sərbəst güləş üzrə 14-cü beynəlxalq turnir keçirilib. Azərbaycan Güləş Federasiyasından AZƏRTAC-a verilən xəbərə görə, turnirdə iştirak edən sərbəst güləş üzrə yığma komandamızın üzvləri 2 qızıl medala sahib olublar. Fəxri kürsünün ən yüksək pilləsinə Murtuz Müslümov (74 kq) və Cəmaləddin Məhəmmədov (125 kq) qalxıblar.



## Zaur Cavadov dünya çempionu olub

"Arena Riqa"da "KOK World Grand Prix in Riga 2017" döyüş şousunun dünya Qran-Prisi çərçivəsində döyüşləri keçirilib. SİA-nın məlumatına görə, Latviyanın ən yaxşı kik-boksçusu Zaur Cavadov yarım-ağır çəki dərəcəsində (77 kiloqramadək) Moldovadan olan Sergey Morarinin çempion titulunu əlindən alıb. Moldovalı nokautla uduzub.

## Ronaldo açıqladı: "Əlbəttə, ən yaxşı mənəm"

Madrid "Real"ının və Portuqaliya millisinin hücumçusu Kristiano Ronaldo yenə maraqlı açıqlama ilə diqqət mərkəzinə gəlib. Apasport.az saytının məlumatına görə, 32 yaşlı oyunçu sosial şəbəkədə canlı yayım zamanı azarkeşlərlə ünsiyyətdə bu sözləri işlədib. Yayımı izləyən fanatlardan biri ona "Ronaldo, ən yaxşı sənsən" yazıb. O isə cavabında "Əlbəttə mən ən yaxşıyam, inanmırsız, baxın, "Qızıl top"u kim qazanıb?" deyib. Qeyd edək ki, 2017-ci ilin yekunlarına əsasən FİFA "Qızıl top" mükafatını Kristiano Ronaldo qazanıb. O, Lionel Messi və Neymarı qabaqlayıb.

## ELAN

Bakı şəhəri, Yasamal rayonu, M.Həsənov küçəsi, ev 61 J ünvanda qeydiyyatda olan Manafova Qəşəng Gülməmməd qızına verilmiş "Daşınmaz əmlakın dövlət reyestrindən çıxarış" itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin dil və ədəbiyyat müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi Tağıyeva Ofelya Osman qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500